Asif Hüseynli

# QƏDİM TÜRK HÖKMDARLARI

- 12244 -

...Respublikası Prezidentinin
...r idarəsi
...KİTABXANASI

Qərgiz NƏŞRİYYATI
BAKI-2013

**Redaktor:** T.e.d. prof. Qüdrət İsmayılzadə
**Məsləhətçi:** T.e.d. Maisə Rəhimova

**Asif Hüseynli. "Qədim türk hökmdarları". Bakı, "Nərgiz nəşriyyatı", 2013. – 96 səh.**

*Kitab tarixlə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur. "Dünya hökmdarları" silsiləsinə daxil olan kitabda qədim dövrdə mövcud olmuş bir sıra türk dövlətlərinin hökmdarları haqqında məlumatlar toplanmışdır.*

$H \frac{742000000}{079} 753 - 2013$

© «Nərgiz», 2013

# Ön söz

Hörmətli oxucu!

Son illərdə bütün dünya miqyasında bir sıra xalqların tarixinə, görkəmli şəxsiyyətlərinə, elm və mədəniyyət xadimlərinə, sərkərdələrinə, hökmdarlarına, onların həyat və fəaliyyətlərinə maraq çox sürətlə artır. Belə xalqların içərisində türkdilli xalqlar xüsusi yer tutur. Bu da təsadüfi deyildir. Azı üç min illik dövlətçilik tarixi, zəngin və özünəməxsus mədəniyyəti olan 20 milyon km. ərazidə yaşayaraq iri imperiyalar yaradan, tarixin gedişinə təsir göstərən, hazırda sayı 300 milyonu keçən türk xalqlarının tarixi indiyə qədər çox az tətqiq edilmiş, qərəzli şərh edilmiş, onların rolu kiçildilmişdir. Nədənsə bir sıra dünya tarixçiləri türk sözünü eşidəndə qıcıqlanır və dərhal ona qarşı çıxmağa, qara yaxmağa cəhd edir.Təbii ki, bunları bütün tətqiqatçılara aid etmək olmaz. Keçmiş sovet dönəmində türklərə qarşı mənfi münasibət daha güclü idi. 1991-ci ildə SSRİ süqut edərkən orada yaşayan əhalinin beşdə birindən çoxunu təşkil edən türk xalqlarının qədim tarixinin öyrənilməsinə qəsdən əngəl törədilir, bilərəkdən dolaşıq şərh edilir, onlar vəhşi, mədəniyyətsiz təqdim edilirdi. Əlbətdə Lev Qumilyov kimi əsl tarixçilər bunun əlehinə çıxmış, elə rus xalqının da təşəkkülündə mühüm rol oynayan türklərin tarixini düzgün işıqlandırılmasına səy etmişdirlər. Belə bir vəziyyət xx əsrin 30-80-ci illərində Azərbaycanda da mövcud olmuşdur. Azərbaycan xalqının soykökü kifayət qədər öyrənilmir, onun türk olduğu inkar edilir və türk tayfalarının Cənubi Qafqaza yalnız XI əsrin əvvəllərində gəlməsi kimi sərsəm fikirlər ortaya atılırdı. Eyni zamanda tarix boyu mövcud olmuş türk dövlətlərinin, onların hökmdarlarının üzərindən sükutla keçilirdi. Məsələn

Azərbaycan Sovet Ensiklopediyasında Atilla kimi hökmdar haqqında məlumat verilməmişdir. Azərbaycanın qonşu türkdilli dövlətlərlə, əsasən Türkiyə respublikası və İran İslam Respublikasının türkdilli əhalisi ilə əlaqələrinə imkan verilmirdi. "Lakin həqiqətin üzünə pərdə çəkməz olmaz", demişlər. Son illərdə tarixçilər bu sahədə olan boşluğu doldurmağa çalıçır, Türk dövlətləri və onların rəhbərləri haqqında əsərlər yazır və tərcümələr edirlər. Müəllif Asif Hüseynli də bu sahədə müəyyən işlər görməyə çalışmışdır. Onun çap etdirdiyi "Asiya hökmdarları", "Çin hökmdarları", "İran hökmdarları", "Hindistan hökmdarları" kitablarında həmin ölkələrdə mövcud olmuş türk sülalələrinə məxsus hökmdarlar haqqında məlumatlar verilmişdir. Onun qələmə aldığı "Qədim Türk hökmdarları" kitabında isə yalnız türk hökmdarlarından bəziləri haqqında məlumatlar yer alıb. Burada Manna, Skif, Atropatena, Albaniya kimi Azərbaycan dövlətlərində, Qədim Hun, Ağ Hun, Qərbi Hun kimi türk imperiyalarında, müasir Çin Respublikası ərazisində yaranmış və Azərbaycan oxucusuna məlum olmayan Sya, Şimali Lyan, Şimali Xan, Şimali Vey kimi dövlətlərin hökmdarları, onların fəaliyyətləri işıqlandırmışdır. Kitabın sonunda isə istifadə olunmuş kitabların siyahısı verilmişdir. Daha geniş materiallar əldə etməyə çalışan oxucular həmin ədəbiyyatlara müraciət edə bilərlər. Müəllif sonrakı dövrlərdə yayamış türk hökmdarları haqqında da kitab yazmağı planlaşdırır. Biz isə müəllif Asif Hüseynliyə gələcək işlərində uğurlar diləyirik.

*T.E.D. professor Əsmət Muxtarova*



## İranzu

(e.ə. 740- e.ə. 719- cu illər)



*Manna hökmdarı*

Azərbaycanın cənubunda, Urmiya gölü ətrafında yaranmış Manna dövlətinin ən qüdrətli hökmdarı. Yadelli işğalçıların, torpağımıza göz tikən qəsbkarların qarşısında əyilməyən, basqınçılara qarşı yorulmadan hər vasitə ilə mübarizə aparan, heç bir təhlükədən qorxmayan, yalnız xalqın azadlığını, bütövlüyünü, müstəqilliyini, əhalinin rifahını düşünən və bu yolda malından, övladından, canından keçməyə hazır olan, buna görə də yaddaşlara əbədi həkk olan minlərlə vətən övladlarından biri olan şəxsiyyət. Tarixlə maraqlananlara çox yaxşı məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənəsi olan regionlardan sayılır. Miladdan əvvəl birinci minillikdə Cənubu Azərbaycanda Manna dövləti meydana gəlmişdi. Burada Zamua, Gilzan, Alateye, Sirikaş, Andia, Karalla, Missi, Buşdiş kimi vilayətlər var idi. Hələ e. ə. X əsrdə Zamuada müstəqil dövlət mövcud idi. Onun başçısı Nur-Adad idi.

Assuriya mənbələrində Mannanın adı ilk dəfə e.ə. 843-cü ilə aid kitabədə Mannaş və Munna kimi xatırlanır. Tövratda isə Mini kimi qeyd olunub. Manna dağlıq ölkə idi. Dinc və sülhsevər əhali əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olurdu. Dağlarda çoxlu faydalı qazıntı yataqları aşkar edilmişdi. Arxeoloqların Həsənli və Ziviyədə

tapdıqları əşyalar Mannada metalişləmənin, əsasən də zərgərliyin yüksək inkişafından xəbər verir. Mannanın ilk hökmdarı Udaki hesab olunur. Assuriya hökmdarı III Salmanasara məxsus Kalhu şəhərində tapılan "Qara xatirə daşı" üzərindəki kitabədə yazılmışdır: "... Mannalı Udakinin yaşayış mən yaxınlaşdım. Mannalı Udaki mənim silahımın parıltısından vahiməyə düşdü və öz həyatlnı xilas etmək üçün özünün hökmdar şəhəri Zirtanı qoyub getdi. Mən onu təqib etdim, onun iribuynuzlu heyvanlarını, qoyunlarını, onun saya gəlməyən var-yoxunu mən apardım. Onun şəhərlərini mən viran qoydum, dağıtdım, odda yandırdım."

E.ə. 740-cı ildə Mannada hakimiyyətə İranzu gəlir. Onun hakimiyyətə gəlməsi ilə ölkədə yüksəliş dövrü başlayır. Onun hakimiyyəti illərində Mannanın sərhədləri şərqdə Xəzər dənizinə, qərbdə Urmiya gölü sahilinə qədər, şimalda Araz çayına, cənubda Diyala və Zab çaylarına çatırdı. İranzu qonşu Assuriya hökmdarı III Tiqlatpalasarın apardığı müharibələrdən məharətlə istifadə edib onunla dostluq münasibətlərini möhkəmləndirdi.

E.ə. VIII əsrdə Assuriya Urartu dövlətinə qarşı müharibələr aparırdı. İranzu Assuriya ilə yaxınlığından istifadə edib vaxtı ilə Urartu tərəfindən işğal olunmuş vilayətləri geri qaytara bildi. Hökmdar mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün tədbirlər gördü. Bu qədər böyük ərazini isə idarə etmək çətin idi. Bunu nəzərə alan İranzu idarəetməni asanlaşdırmaq üçün canişinlik sistemi yaratdı. Manna torpaqları vilayətlərə bölündü və onları idarə etmək sədaqətli adamlardan seçilən hakimlərə tapşırılırdı. Hakimlər vilayətlərdə asayişi qoruyur, silahlı dəstələrə başçılıq edir, vergi toplayır, cinayətkarları cəzalandırır,



məhkəməyə rəhbərliyi həyata keçirirdi. İranzu paytaxt İzirtu şəhərində və digər iri yaşayış məskənlərində abadlıq işləri görür, qala divarlarını möhkəmləndirirdi. Assuriya relyeflərindəki şəkillərdən məlumdur ki, İzirtu şəhəri bürclərə əhatə olunmuşdu. Şəhərin mərkəzində



**Manna qalasına hücum**

saray yerləşirdi. Sarayın üstü sərv ağacından yonulmuş tirlərlə örtülmüşdü və bunların xoş ətri otaqları bürüyürdü. Ölkənin müxtəlif yerlərində iri taxıl anbarları inşa olundu, ərzaq ehtiyatı yaradıldı. Quraqlıq və qıtlıq illərində bu anbarlardan kasıb əhaliyə taxıl paylanılırdı. İranzunun sarayında ağsaqqallar şurası fəaliyyət göstərirdi. Onlar idarəetmədə məsləhətləri ilə hökmdara kömək edirdilər. Mannada həmçinin daimi qoşun yaradılmışdı. İranzunun fəaliyyəti nəticəsində Manna Urmiya gölü hövzəsində ən qüdrətli dövlətə çevrilmlşdi. İranzunun mərkəzləşdirmə siyasəti bəzi canişinlərin mənafeyinə uyğun gəlmədiyindən onlar parçalanma siyasəti yeridirdilər. Manna dövlətində yaranmış bu vəziyyətdən qonşu Urartu dövləti öz mənafeyi üçün istifadə etməyə çalışırdı. Çar Rusa bu dövlətin daxili işlərinə qarışmaqla ayrı-ayrı vilayət başçılarını, vəzifə sahiblərini mərkəzi hakimiyyətə qarşı üsyana hazırlayırdı. Çox çəkməmiş Urartunun tədbirləri öz bəhrəsini verməyə

başladı.

E.ə. 719-cu ildə üsyan başladı. Assuriya hökmdarı II Sarqona məxsus kitabədə hadisə belə təsvir olunur: "Hakimiyyətimin üçüncü ilində Şuandahul və Dardukka qala şəhəri öz agasına, mənim boyundurugumu çəkən Manna hökmdarı İranzuya qarşı üsyan fikrinə düşdülər və Zikurtulu Metatiyə arxalandalar. Zikurtulu Metatti öz döyüşçü və süvarilərini verməklə yardım göstərdi. Aşşurun çoxlu qoşununu mən silahlandırdım və bu şəhəri tutmağa getdim. Sukka şəhər əhalisini, Bala şəhər əhalisini, Abitikna şəhər əhalisini onların kökünü kəsə biləcək pis məsləhət verə bildiyi və Urartu hökmdarı ilə sazişə girdiyi üçün mən öz yerlərindən qərbə, Suriyaya köçürdüm." Yazıdan da məlum olur ki, Assuriyanın köməyi ilə İranzu üsyanları yatıra bilmişdi. Üsyandan az sonra, İranzu e. ə. 719-cu ildə öz əcəli ilə ölmüşdü. Bundan sonra Mannada hakimiyyətə növbə ilə oğlanları Aza və Ullusunu sahib oldular. Onlar da atalarının siyasətini davam etdirməyə çalışıb Mannanın müstəqilliyini qorumaq üçün fəaliyyət göstərirlər.



*Qızıl cam*



## Ullusunu

(e.ə.716 - e.ə.680-cı illər)

Azərbaycanın cənubunda mövcud olmuş Manna dövlətinin hökmdarı.

E. ə. 719-cu ildə İranzu öldükdən sonra Mannada hakimiyyət uğrunda oglanları arasında qısamüddətļi mübarizə baş verdi. Mübarizədə böyük ogul Aza qalib gəldi. O atasının mərkəzləşdirmə siyasətini davam etdirib Assuriya ilə dostlugu daha da genişləndirməyə çalışırdı. İranzunun kiçik oglu Ullusunu isə Urartu hökmdarı ilə əlaqə yaradıb atasının və qardaşının düşmən saydığı qüvvələrlə birləşdi və hakimiyyət uğrunda mübarizəni davam etdirdi. Azanın hakimiyyəti az çəkdi və Urartunun qızışdırdığı qüvvələr ona qarşı çıxdı. Məğlub olub Uaiş dağına çəkilən Aza mübarizəni davam etdirməyə çalışsa da sui-qəsd nəticəsində öldürüldü.



*Manna kahini*

E. ə. 716-cı ildə hakimiyyət onun qardaşı Ullusununun əlinə keçdi. O dərhal Assuriya ilə ənənəvi müttəfiqlikdən üz döndərdi və Urartudan kömək istədi. Mannada daxili çətinliklərdən istifadə edən I Rusa qəfil hücuma keçdi və Ullusunun 22 qalasını ələ keçirdi. Qardaşının aqibətindən qorxuya düşən Ullusunu işğalla barışmalı oldu. Lakin müttəfiq dövlətin itirilməsi ilə Asuriya barışmaq istəmirdi.

II Sarqon e. ə. 716 və e. ə. 715- ci illərdə Mannaya uğurlu yürüşlər təşkil etdi. Bu yürüşlərdə qiyamçı hakimlər cəzalandırıldı və Assuriyanın gücü bir daha sübut olundu. Bu yürüş haqqında "Təntənəli yazı"-da belə məlumat verilir: "Mənim boyunduruğumu daşıyan sadiq qul, Mannalı İranzunu tale aparanda və mən onun taxtına oğlu Azanı əyləşdirəndə urartulu Ursa Uişdinin adamına, Zikertunun adamına, Misindiyanın adamına, Mannanın böyük canişinlərinə öz sözünü göndərdi və onlarla yalançı danışıqlar apardı. Onlar öz ağaları Azanın meyidini əlçatmaz Uauş dağından atdılar. Öz atasının taxtına oturan mannalı Ullusunu urartulu Ursaya arxalandı özünün 22 qalasını ona təslim etdi. Ürəyimin qəzəbi ilə mən Assur allahının saysız-hesabsız qoşunlarını mən yaraqlandırdım. Mən şir kimi nərildədim və üzümü bu ölkənin fəthinə yönəltdim. Mannalı Ullusunu mənim yürüşümün yaxınlaşdığını görüb öz şəhərindən çıxdı və qorxu içərisində əlçatmaz dağdakı gizli yerdə gizləndi. Onun hökmdar şəhəri İzirtunu, onun möhtəşəm qalaları İzibiya və Armedi mən fəth etdim və alovda yandırdım. Mən əlçatmaz Uauş dağında urartulu Ursa ilə qanlı döyüş keçirdim və onun hökmdar nəslinin 250 üzvünü ələ keçirdim. Ətrafına divar çəkilən 55 möhkəmləndirilmiş şəhərini, 9 əlçatmaz qalasını, 8 vilayətini fəth etdim və oda yaxdım. Mannalı Ullusunuya məxsus 22 qalanı mən onun əlindən aldım və Assuriya hüdudlarına daxil etdim.



*Manna döyüşçüsü*



Andiyalı Telusinanın vilayətinə qədərki Tuaya ölkəsinin 8 qalasını mən fəth etdim, 4200 sakinini onların sürüləri ilə birlikdə mən əsir etdim. Zikertulu Mitatti mənim silahımdan bərk qorxdu və öz ölkəsinin adamları ilə birlikdə meşəlik dağlara qaçdı, belə ki, mən onları tapa bilmədim. Onun hökmdar şəhəri Pardanı mən alovlarda yandırdım, onun ətrafındakı 23 möhkəmləndirilmiş şəhərlərini mən fəth etdim və onların qoşunlarını mən əsir etdim. Mannalılar ölkəsinin Mitatiyyə bel bağlayan Şunandahul və Zurzikka şəhərlərini mən fəth etdim və onların qoşunlarını əsir etdim. Mən uşdişli Baqdattinin dərisini soydum, Dayukkinunu ailəsi ilə birlikdə mən köçürdüm və Amatti vilayətində yerləşdirdim. Əlçatmaz dağlar arasındakı mannalı Ullusunu mənim etdiyim işlər haqqında eşidəndə quş kimi uçub gəldi və mənim ayaqlarımı qucaqladı. Onun saysız-hesabsız günahlarını mən bagışladım, onun cinayətlərini unutdum, ona mərhəmət etdim və onu öz hökmdar taxtına əyləşdirdim. Ursa və Mittatdidən aldığım 22 qala və 2 möhkəmləndirilmiş şəhəri ona verdim, onun əzilmiş ölkəsini bərpa etdim. Mən öz hökmdar təsvirimi hazırlatdım, onun üstündə mənim hakimim Aşşurun qələbələri haqqında yazdırdım, onu gələcək zamanlar üçün onun hökmdar şəhəri İzirtuda dikəltdim."

Mənbədən də aydın görünür ki, Assuriyanın törətdiyi dağıntılara baxmayaraq yürüşdən sonra Ullusununun mövqeyi ölkədə güclənir, müxalif qüvvələr məhv edilir. Bundan sonra hökmdar əsas diqqəti bərpa işlərinə yönəltdi. E. ə. 714-cü ildə Mannada yenə qiyam baş verdi. Dayaukki hakimi Ullusununun oğlunu girov götürdü. Ullusunu assuriyalıların köməyi ilə qiyamı yatıra bildi. Həmən il II Sarqonun Uratuya yeni yürüşü başladı. Manna sərhəddinə çatanda Ullusunu saray adamları, ailə üzvləri ilə birlikdə onun pişvazına çıxdı. Paytaxtda Sarqonun

şərəfinə ziyafət verildi. II Sarqon Urartunu darmadağın etdi. Rusa ağır məglubiyyətə dözə bilməyib özünü öldürdü. Ullusununun xahişi ilə Sarqon atçılığın inkişaf etdiyi Subi vilayətini Urartudan alıb Mannaya qaytardı. Yürüşdən sonra Mannada sabitlik yarandı. Darmadağın edildikdən sonra zəifləyən Urartu dövləti görünür bir müddət elə bir təhlükə təşkil etmirdi. Bundan istifadə edən Manna tədricən sərhədlərini genişləndirir. Mannanın vəziyyəti elə möhkəmləndi ki, artıq II Sarqonun varisləri dövründə Ullusunu Assuriyanın üstünlüyünü tanımaqdan imtina etdi və bəzi Assuriya yaşayış məskənlərini ələ keçirə bildi. Assyriya hökmdarı Sinaxxerib və Urartu hökmdarı II Argişti Mannaya hüçum etsələr də məğlub oldular. Ullusununun dövründə Mannada kənd təsərrüfatı, sənətkarlıq xeyli inkşaf etmişdi. Yeni suvarma kanalları çəkilmişdi. Ullusununun vəfatından sonra hakimiyyətə Ahşeri gəlmişdi.



*Həsənlidə tapılan tunc əsa başı*



## İşpakay
(e.ə. 680- e.ə.669-cu illər)



*Döyüşçü*

Skiflərin adı bizə gəlib çatan ilk hökmdarı.

E.ə.I minillikdə Şərqi Avropa, Qərbi və Mərkəzi Asiya, Ural ətrafı torpaqlarda, Şimali Qafqazda, Qara dəniz ətrafında yaşayan skif tayfaları ətraf xalqların inkişafında müstəsna rol oynamışdılar. Uzun illər Skiflərin tədqiqatı ilə məşğul olan rus alimi A.İ.Ferenojkin yazır: "Skiflər təkcə yunanların yazdığı kimi barbar olub, çoxlu şəhərlərin və sivilizasiyaların dağıdıcıları deyil, həm də yeni, o dövr üçün inkişaf etmiş mədəniyyətin yaradıcılarıdır." Onlar həm də antik mədəniyyətlə şərq mədəniyyətinin qovuşmasına, yunanların Şərqi Avropa xalqlarına təsirinin güclənməsinə yaxından kömək etmişdilər. Skiflər haqqında ilk məlumatlara e.ə. VIII əsrə aid Assuriya və Urartu mənbələrində rast gəlinir. Daha sonralar onlar haqqında Herodot və Aristey Prokonesko kimi müəlliflər məlumatlar verirlər. Assuriya mixi yazılarında skiflər aşkuz-işkuz adlanır. Qədim Assuriya allahlarından olan Şamaşuya müraciətdə deyilir: "Görəsən Manna sərhədlərində olan skiflərin fikirləri həyata keçəcəkmi?" Görəsən onlar Manna vilayətlərindən hara hücum edəcəklər? Görəsən onlar qənimətlər

əldə etmək üçün Xubuşkia keçidi vasitəsilə Xarania və Anususkia şəhərlərinə yaxud Assuriya sərhədlərinə basqın edəcəklərmi? “Skif hökmdarı İspakayın” adı da bu mənbələrdə çəkilir. Tətqiqatçılar İspakay sözünün mənasını “it” kimi tərcümə edirlər. O dövrdə it bir sıra xalqlarda totem kimi qəbul edilən ən hörmətli heyvan hesab edilirdi. Herodotun qeydlərindən məlumdur ki, skiflər çoxlu it saxlayır və döyüşlərdən əvvəl onları düşmənlərinin üzərinə buraxırdılar. İşpakay olduqca amansız, qəddar, çox döyüşkən hökmdar kimi ad çıxarmışdı. Umumiyyətlə o dövrdə skiflər düşmənlərinə qarşı çox amansız idi. Döyüşə ilk başlayan gənc skifin öldürdüyü düşmənin baş dərisindən dəsmal hazırlanıb ona bağışlanırdı. Skif əsgərləri atlarını və silahlarını öldürdükləri düşmənlərin üz dəriləri ilə bəzəyirdilər. Öldürülən hökmdarların başlarından şərab piyalələri hazırlanırdı.

İşpakay e.ə. 680-cı ildə Assuriya üzərinə hücum edir. Skiflər qələbə qazanır və bəzi Assuriya şəhərlərini qarət edirlər. Ölkəsini xilas etməyə çalışan Assur çarı Asarxatdon təcili elçilərini bahalı hədiyyələrlə İşpakayın yanına göndərib sülh istəyir. Skiflər uzun muddət Yaxın Şərqdə təhdid edici qüvvəyə çevrildilər. Kimmerləri təqib edən skiflər yeni-yeni ərazilərə yayılırdılar. Skif tayfalarının Mannaya axını onların da güclənməsinə və hərbi qüdrətinin artmasına səbəb olurdu. E.ə. 672-ci ildə İşpakayın başçılıq etdiyi skif orduları Midiya üzərinə yeridi. Midiya məğlub olsa da tezliklə skiflərlə ittifaq yaratdı və Assuriyanın itaətindən çıxıb müstəqil oldu.

E.ə. VII əsrdə skiflərin əsas məşğuliyyəti köçəri maldarlıq və ovçuluq olmuşdur. Bununla belə onlarda sənətkarlığın müxtəlif sahələri-dəmirçilik, silahqayırma, qızıl-gümüşdən bəzək əşyalarının hazırlanması xeyli inkişaf etmişdi. Skiflər qonşu xalqların hərb sənətinə böyük təsir göstərmişdilər. Onlar tuncdan güzgülər və cəng arabaları hazırlayırdılar. Arxeoloji qazıntılar zamanı Şimali Qafqazda, Krımda, Azərbaycan Respublikasında skiflərə məxsus kurqan qəbirlər tətqiq olunmuşdur. Belə qəbirlərə misal olaraq Cənubi Osetiyadakı Tliy kurqanını göstərmək olar. Bu qəbirlərdən tapılan yüksək keyfiyyətli maddi-mədəniyyət nümunələri-gil qablar, baltalar, tunz qazanlar, xəncərlər, nizə ucluqları, vazalar, boyunbağılar, bilərziklər, sırğalar hazırlanma texnikası ilə hamını heyrətə gətirir. Herodot yazır ki, skiflər at və qoyun saxlayır, ət yeyib, süd içirlər. Onlar südü çalxalayıb yağ əldə edirlər. Skiflər dəridən hazırlanan şış papaq qoyurdular. Donuzu sevmir, öz ölkələrində onu görmək istəmirdilər. İşpakayın sürətlə qüvvətlənməsi hətta Misir fironlarını da qorxuya salırdı. Odur ki, e.ə. 670-ci ildə Misir fironu qiymətli hədiyyələrlə İşpakayın yanına elçilər göndərir. E.ə. 669-cu



***Kurqanlarda tapılan gil qablar***

ildə İşpakay Assuriya ilə növbəti dəfə toqquşur. İlk vaxtlar o bir sıra uğurlar qazanır. Döyüşlərin birində İşpakay məğlub olur və qətlə yetirilir. Qələbələrini sadalayan Assuriya çarı Asarxaddon özü haqqında daş kitabədə belə məlumat verir: "Mannalılar ölkəsinin adamlarını, ram olmayan kutilərin pərən-pərən salan mən silahla onları xilas edə bilməyən müttəfiq, skif İşpakayın qoşununu əzişdirdim." İspakayın vəfatından sonra hakimiyyətə oğlu Partatua sahib olur. Asarxaddon öz qızını ona verməklə münasibətləri yaxşılaşdırmağa çalışır və bir müddət buna nail olur. Assuriya ilə skiflər arasında ittifaq yaranır. 653-cu ildə skiflər daha da qüvvətlənirlər. Onlar Midiya çarı Kaştaritini öldürüb onun ölkəsini işğal edə bilirlər. Midiyada skif ağalığı 28 il davam edir. Burada Skif ağalığına Kiaksar son qoymuşdur. O skiflərin başçılarını ziyafətə dəvət edib içirmiş və hamısını qırmışdır.

E.ə. VI əsrin əvvəllərində güclü Midiya dövləti ilə rəqabət apara bilməyən Skif padşahlığı süqut edir.



## Teupşa

(e.ə.VII əsr)

Qədim dövrlərdə Şimali Qafqazda, Kiçik Asiyanın bəzi bölgələrində yaşamış türkdilli kimmer tayfalarının adı bizə gəlib çatan ilk hökmdarı. Qara dənizin şimalında, Krım yarımadasında, Kercdə yaşayan, bəzi tətqiqatçıların ehtimallarına əsasən Dəryal keçidi vasitəsilə Cənubi Qafqaza yayılan, buradan da Kiçik Asiyaya keçən kimmerlər dünya tarixinə təsir göstərən xalqlardan sayılır. Burada tapılan taxta qutu qəbir abidələri mədəniyyəti onların adı ilə bağlıdır. Onlar Anadoluda və İkiçay arasındakı siyasi hadisələrdə fəal iştirak etmişdilər. Kimmerlərin adına ilk olaraq e.ə.VIII əsrə aid olan Assur mənbələrində rast gəlinir. Burada onların adı müxtəlif formalarda – qamir, qimir kimi çəkilir. Bibliyada onların adı qomer kimi xatırlanır. Bir qədər sonralara aid Yunan mənbələrində isə onların adı kimmerlər kimi xatırlanır. Onların əsas məşğuliyyəti maldarlıq olub. Tarixçilərin arasında kimmerlərin etnik mənsubiyyəti məsələsində yekdil fikir yoxdur. XX əsrin ortalarına kimi Avropa alimləri arasında kimmerlərin irandilli olması ehtimalı daha geniş yayılmışdır. Lakin sonrakı tətqiqatlar, arxeoloji qazıntılar zamanı əldə olunan materiallar kümerlərin türk mənşəli ol-



*Döyüşçü*



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

duğunu sübut edir. E.ə.VIII əsrdə yaşamış yunan şairi Homer onları “həmişə hərəkətdə olan”, İ.M.Dyakonov və B.A.Livşits isə “zirək atlı dəstəsi” kimi mənalandırır. Kimmerlər haqqında daha geniş məlumatı yunan tarixçisi Herodot vermişdir. Onun “Tarix” adlı əsərindəki qeydlərinə görə kimmerlər Qara dəniz sahillərində yaşayırdılar. Kimmerləri çarlar idarə edirdilər. Orta Asiyadan gəlmiş skiflər onların ölkəsində qəfildən göründükdə kimmerlər baş vermiş vəziyyəti müzakirə etmək üçün yığıncaqlara toplanmışdılar. Sıravi kimmerlər skiflərlə toqquşmaq istəmədiklərindən yığışıb başqa yerə köçməyi məsləhət görmüşlər. Onların başçıları isə heç yana getməyəcəklərini bildirərək iki hissəyə ayrılmış və könüllü şəkildə bir-birini qırmışlar. Sadə kimmerlər onların cəsədlərini Tiras (indiki Dnepr) çayının sahilində dəfn edərək Kicik Asiyaya getmişdilər. II əsr tarixçisi Dionisi Periyrget onların adını Kamarit, III əsr tarixçisi Pomponi Mela Kamarit kimi qeyd edirlər. Urartu ölkəsinin ərazisinə gələndən sonra əvvəlcə Urartu hökmdarları onlara qarşı müharibəyə başlayırlar. Baş verən qanlı döyüşlərdə urartulular məğlub olurlar və çoxlu əsgər itirirlər. Bu hadisə çar I Rusanın hakimiyyət illərinə təsadüf edir. Nəticədə kimmerlər Urartu ərazisində sərbəst yaşamağa başlayırlar. Bundan sonra onlar Midiya və Manna ərazilərinə də yayılırlar. Bu hadisələr zamanı assur mənbələrində kimmer çarı Teupşanın adı çəkilir. İranşünaslar bu hökmdarın adını İran mənşəli hesab edərək onun “tava aspa” sözlərindən olduğunu və “güclü at” mənasını verdiyini bildirirlər. Lakin türkoloqlar bu sözün türk mənşəli olduğunu, “qızıldan varlı”, “başçı” mənasını verdiyini söyləyirlər.



Teuşpanın e.ə. VII əsrin 80-cı illərində hökmdarlığa gəldiyi ehtimal olunur. O olduqca quvvəli, cəsur şəxsiyyət olmuşdur. Onun hakimiyyəti illərində kimmerlər böyük dövlətlərlə dəfələrlə uğurlu müharibələr aparmışlar. Teupşanın bir müddət Midiya və Manna hökmdarları ilə müttəfiq olduğunu və nigah diplomatiyasından istifadə etdiyi ehtimal olunur. Digər türk hökmdarları kimi o yüksək təşkilatcılıq qabiliyyətinə malik olub, böyük nüfuz sahibi idi. O yaxşı at sürür, nizə və ox atır, qılınc işlədirdi.



*Kimmer atlısı*

E.ə.679-cu ildə o, Assuriya ilə müharibəyə başlayır. Müharibə bir ildən çox davam edir. İlk vaxtlar xeyli uğur qazanan Teupşa e.ə. 678-ci ildə döyüşlərin birində həlak olur. Buna baxmayaraq kimmerlər qonşu dövlətlərlə müharibəni yenə də davam etdirirlər. E.ə. 676-cı ildə kimmerlər urartulularla ittifaqda Kiçik Asiyanın Friqiya dövlətinə hücum edirlər. Qısa müddətli döyüşdə kimmerlər yenə qalib gəlir. Məğlub olub ordusunu itirən Friqiya cari Qordi əvvəlcə qaçır. Onu təqib edirlər. Daha sonra Qordi ələ keçməmək üçün öküz qanı içərək özünü bu yolla zəhərləyib öldürmüşdür.

E.ə.VII əsrin ortalarına yaxın kimmerlər Kiçik Asiyanın Lidiya dövlətini də işğal etmişdir. Lidiya çarı Quqqu qanlı döyüşdə öldürülür. Başsız qalan lidiyalılar pərən-pərən düşür və kimmerlər paytaxt Sard şəhərini tutub əhalini qarət edirlər. Kimmerlərin son hökmdarlarından biri Sandakur olmuşdur. Bu sözün mənası "adlı-sanlı" deməkdir. Sonralar kimmerlər siyasi cəhətdən zəifləyirlər. Onlar sak tayfaları kimi skiflərlə qaynayıb qarışmışdır. Odur ki, Assuriya mənbələrində skif çarları həmçinin kimmer və sak hökmdarı kimi təqdim edilir. Azərbaycan xalqının formalaşmasında kimmerlərin də rolu olmuşdur. Onlarla bağlı ölkəmizdə, Gürcüstan, Ermənistan və Türkiyədə Qımırlı, Kəmərli kimi onlarla yer adları mövcuddur. Məhəmməd Həsən Baharlı 1921-ci ildə Bakıda çap etdirdiyi "Azərbaycan" adlı kitabında yazır: "S.Martinin hesablamasına görə Kimmeriyalılar başqa xalqlarla birlikdə eramızdan əvvəl Qafqazdan şimala doğru yaxın ölkələrdə məskunlaşmışdılar. Heradot buranı həmişə zülmətlə və dumanla bürünmüş yer adlandırır. Onlarla bağlı olaraq Qafqazdan şimaldakı ərazilər Kimmeriya adlanır. Onların Azərbaycana sonuncu hücumu e.ə. 633-cü ildə olub."



## Tomiris

(e.ə. VI əsrin ortaları)



*Tomiris*

Azərbaycan xalqının qəhrəman qızı, adı üç min il ərzində ağızdan-ağıza keçib dövrümüzə qədər gəlib çatan ilk qadın hökmdar. Yadelli işğalçıların, torpağımıza göz tikən qəsbkarların qarşısında əyilməyən, basqınçılara qarşı yorulmadan hər vasitə ilə mübarizə aparan, heç bir təhlükədən qorxmayan, yalnız xalqın azadlığını, bütövlüyünü, müstəqilliyini, əhalinin rifahını düşünən yaddaşlara əbədi həkk olan minlərlə vətən övladlarından biri olan şəxsiyyət. Tarixlə maraqlananlara çox yaxşı məlumdur ki miladdan əvvəl birinci minillikdə şimallı-cənublu Azərbaycanın çox hissəsində yaşayan, qədim türk xalqlarından biri sayılan massaketlər məskən salmışdılar. Hərbi demokratiya quruluşunu saxlayan massaketləri başçılar idarə edirdi. Bu tayfa başçılarından biri də Tomiris olmuşdur. E.ə. V əsrdə yaşamış və "tarixin atası" hesab edilən qədim yunan alimi Herodot yazırdı: "Massaketlər, necə ki deyərlər, saysız-hesabsız cəsur xalqdır. Onlar Şərqdə, Günəşin çıxdığı istiqamətdə-Araz çayının o tayında yaşayırlar... Arazın təkcə bir qolu Kaspi dənizinə tökülür. Kaspi dənizi... heç

bir başqa dənizlə əlaqəsi olmayan qapalı göldür. Massaketlər, iskitlər kimi geyinir və onlar kimi həyat sürürlər. Onlar atlı və piyada vuruşurlar. Onların bütün şeyləri qızıldan və gümüşdəndir. Massaketlər əkinçiliklə məşğul olmur, maldarlıq məhsulu və balıqçılıqla dolanırlar. Araz çayında həddən artıq balıq olur. Həmçinin süd içirlər. Onların ehtiram etdiyi tanrı günəşdir. Onlar hər il günəşə atdan qurban verirlər, bu qurban kəsmə mərasimini belə əsaslandırırlar ki, cəld tanrının özünə dünyada ən cəld canlını qurban vermək gərəkdir... Bəziləri massaketləri də iskit tayfalarından sayır... " Strabon da belə hesab edir ki, "əgər Xəzər dənizinə girsək, sağda işquzlarla sarmatlar yaşayırlar... Onların vilayəti Hindistana qədər uzanır. Xəzər dənizinin o biri tərəfində yaşayanlara gəldikdə isə onların bəzilərini sak, bəzilərini isə massaketlər adlandırırlar." Massaketləri idarə etmiş qadın hökmdar Tomiris haqqında ən dəqiq və ilk məlumatlar da məhz yunan tarixçisi Herodota aiddir. Sonrakı dövrlərdə yaşayıb yaradan müəlliflərin, tarixçilərin demək olar ki, hamısı onun "Tarix" kitabına əsaslanır. Məs., Abasqulu ağa Bakıxanov ona şöhrət gətirmiş məhşur "Gülüstani-İrəm" əsərində belə yazır: "Herodotun yazdığına görə qədim Kəyan padşahlarından Keyxosrovun massaket skifləri və onların mələkəsi Tomirisə qarşı açdığı müharibə Albaniyada olmuşdur." Çox təəssüf ki, Tomirisin nə vaxt, hansı şəraitdə hakimiyyətə gəlməsi və neçə il hökmranlıq etməsi naməlumdur. Son illərin bu işlə məşğul olan tədqiqatçı alimləri onun təxminən e.ə.570-e.ə.520-ci illərdə yaşadığını və ərinin vəfatından sonra xalqın istəyi ilə hakimiyyətə gəldiklərini qeyd edirlər. Herodot və sonraki antik müəlliflərin hamısı göstərir ki, e.ə. 550-ci ildə Midiya dövlətinin varlığına son qoyan, e.ə.547-ci ildə Lidiyanı, e.ə.539-cu ildə Babilistanı və bir sıra ölkələri işğal edən Kir massaket torpaqlarını ələ keçirmək, ərazilərini daha da genişləndirmək, hakimiyyətini şimalda Qafqaz dağlarına qədər yaymaq məqsədi ilə əvvəlcə hiyləyə əl atır. Bir müddət müxtəlif yollarla Azərbaycan haqqında geniş məlumatlar toplayan şah massaketlərin hökmdarı Tomirisin yanına məktubla bərabər elçi göndərir. Hörmətlə qarşılanan elçilər massaket hökmdarına şahın adından qiymətli hədiyyələr təqdim edərək hökmdarın onunla evlənmək istədiyini bildirirlər. Qəzəbləndiyini üzə vurmayan ağıllı Tomiris şahın əsl məqsədini çox gözəl başa düşür. Lakin bununla belə o bu məsələni dövlət əhəmiyyətli olduğunu bildirib müzakirəsini ağsaqqallara, ali ruhanilərə, ölkəsinin adlı-sanlı şəxslərinə həvalə edir. Yalnız onların uzun sürən müzakirəsindən sonra yekdil qərar çıxarılır və Tomiris məmuniyyətlə rədd cavabı verir. Gözlədiyi rədd cavabı İran şahının müharibəyə başlaması üçün bir bəhanə olur. Tomiris nahaq qan tökülməsinin qarşısını almaq üçün Kirin yanına öz elçilərini göndərir. O təklif edir ki, şah minlərlə adamın nahaq ölümünə bais olmasın. Tomiris məktubunda yazır: "Əgər müharibə etmək istəyirsənsə, onda gəl mərdliklə vuruşaq. Ya sən Araz çayından xeyli aralan mən qoşunumla o taya keçim, ya da mən uzaqlaşım, sən qoşunla bu tərəfə keç, vuruşaq." Kir sərkərdələri ilə Arazın o tayında vuruşmağı əlverişli sayıb üstün tutdu. İran qoşun rahatlıqla çayı keçən kimi dərhal hiyləyə əl atdı. O əsir alıb müşavir kimi yanında saxladığı Lidiya çarı Kirezin məsləhəti ilə hərəkət etdi. Herodot Kirezin dili ilə bu barədə belə deyir: "..Biz çayı

keçərək belə etməliyik. Mənim öyrəndiyimə görə massaketlər təmtəraqlı İran həyat tərzinə və onun böyük nəşəsinə tamamilə bələd deyillər. Buna görə də mənim fikrimcə bizim düşərgəmizdə bu adamlar üçün çoxlu qoyun kəsib bir qonaqlıq düzəltməli, süfrəyə tünd şərabla dolu çoxlu qab düzməli və hər cür ləziz təam qoymalıyıq. Bütün bunları hazır etdikdən sonra, qoşunların ən cüzi və zəif bir hissəsini burada qoyub qalan hissəsini geri çəkmək lazımdır. Yəqin ki ilk döyüşdə qalib gələn düşmənlər bu bol yemək-içməyi görüb onun üstünə cumacaq və bizim əlimizə böyük igidliklər göstərmək üçün imkan düşəcəkdir." Bütün bunları diqqətlə dinləyən şah məmnun qalır. Kirezin məsləhətinə dəqiq əməl edən İran ordusu qısa döyüşdən sonra ordugahdan vahimə içində qaçırlar. Qaliblər şadyanalıqla düşmən düşərgəsinə daxil olub süfrə başına oturub yeyib-içirlər. Gecə iranlılar geri dönüb onların düşərgəsində sərxoş olub yatan massaketləri, Tomirisin oğlu Sparqapis də daxil olmaqla əsir tuturlar. Tomiris bu hiylə nəticəsində qoşununun üçdə bir hissəsini itirsə də ruhdan düşmür. Qələbəsindən qürrələnən şah dərhal Tomirisə təklif edir ki, fikrindən daşınıb təslim olsun və yeganə oğlunu bu yolla xilas etsin. Tomiris yeganə övladının əsir düşməsindən sarsılsa da vətən torpağının daha üstün olduğunu bildirib təklifi nifrətlə rədd edir. Əsir oğlan isə şahın hüzurunda dindiriləndə əl-


*Döyüşçülər*



lərinin açılmasını xahiş edir. Şah Sparqapisin ona kömək edəcəyini düşünüb buna icazə verir. Lakin oğlan xəcalətindən özünü öldürür. Bundan sonra həlledici döyüş baş verir. Səhər tezdən şiddətli döyüşə əvvəlcə oxatanlar başlayırlar. Yalnız bundan sonra piyadalar və süvarilərin toqquşması baş verir. Şiddətli döyüş axşama qədər davam edir. Heç bir tərəf geri çəkilmir. Nəhayət massaketlər qalib gəlir. Kir başda olmaqla bütün İran ordusu məhv edilir. Tomirisin əmri ilə şərab tuluğu insan qanı ilə doldurulur. Sonra ölülər içərisindən Kirin meyidi tapılır. Hökmdarın sərəncamı ilə Kirin başını qanla dolu tuluğa salırlar. O meyidə istehza ilə deyir: "Sən qan istəyirdin, indi doyunca içə bilərsən." Beləliklə hökmdar Tomiris oğlunun da, həlak olan döyüşçülərindən də intiqamını alır. Massaketlər öz istiqlaliyyətlərini qoruyub saxlayırlar. Tomirisin bundan sonrakı fəaliyyəti haqqında tarixdə heç bir məlumat yoxdur. Massaketlər isə tədricən Azərbaycanın digər türkdilli tayfaları ilə qaynayıb-qarışır və xalqımızın formalaşmasında çox mühüm rol oynayırlar. Cahangir Zeynaloğlu keçən əsrin əvvəllərində çap etdirdiyi "Müxtəsər Azərbaycan tarixi" əsərində yazır: "Hicrətdən əvvəl burada yaşayan məsğəritlər o zaman fars və iran padşahı ilə müharibə edib onları məğlub edib. Məsğəritlər ağ hun türkləridir. Onlar gəlib Xəzər dənizinin sahillərində yerləşdikdən sonra növbənöv adlar almışlar." Massaketlərlə bağlı toponimlərə nəinki müasir Azərbaycan respublikasında, həmçinin indiki Ermənistan və Gürcüstanda da rast gəlinir. Yeri gəlmişkən qeyd edim ki, Tomiris qazax, qaraqalpaq və bir çox türk xalqlarının ehtiram göstərdiyi tarixi şəxsiyyətlərdən biridir.

# Atropat

(e.ə.IV əsr)

Azərbaycanın qədim dövlətlərindən biri olan Atropatenanın banisi, antik dövrün görkəmli dövlət xadimi, şöhrətli sərkərdə.Azərbaycanın cənubunda 450 ilə qədər hakimiyyət sürmüş türk mənşəli Atropatilər sülaləsinin banisi olan Atropat uzun illər İran Əhəməni dövlətinin vilayət hakimlərindən biri-Satrap olmuşdur. Atropat sözünün mənası "odu qoruyan" deməkdir. Mənbələrdən məlumdur ki, o hələ Əhəməni şahı Artakserks tərəfindən Kiçik Midiyanın (indiki Cənubi Azərbaycan, İran Kürdüstanın bir hissəsi, Azərbaycan respublikasının cənub rayonları, Gilan vilayəti) satrapı təyin olunmuşdur. Onun nə vaxt anadan olunması dəqiq bilinməsə də təxmin etmək olar ki, e.ə. IV əsrin 70-ci illərində doğulmuşdur. Qədim yunan tarixçisi Strabon "Coğrafiya" əsərində belə yazır: "Midiya iki hissəyə ayrılır. Bir hissəsini Böyük Midiya adlandırırlar ki, baş şəhəri Midiyanın paytaxtı olmuş böyük şəhər Ekbatandır (hələ indi də o Parfiyalıların paytaxtıdır, onların hökmdarları isə azı yayı burada keçirirlər, çünki Midiya soyuq



*Atropat və İsgəndər*



ölkədir, qışda onlar Dəclə üzərində, Babilin yaxınlığındakı Selevkiyada qalırlar.) II hissə-Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan alıb, hansı ki, bu ölkənin Böyük Midiya kimi makedoniyalılara tabe olmasına yol vermədi. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat öz hökmü ilə ölkəni müstəqil etdi və indi də varislik onun ailəsində qalır. Çünki onun nəsilləri Suriya çarları, sonralar isə Parfiya çarları ilə nigah əlaqələrinə girirdilər. Bu ölkə Matianadan şərqdə, Böyük Midiyadan qərbdə və hər iki ölkədən şimalda yerləşir. Bu ölkə hərbi qüvvə baxımından kifayət qədər böyükdür. Belə ki, o Apollonidin dediyinə görə döyüşə 10 min atlı və 40 min piyada çıxara bilir. Doğrudur, atropotenlilərin güclü qonşuları vardır, parfiyalılar tez-tez onların ölkəsini viran edirlər. Lakin onlar müqavimət göstərir və zəbt edilmiş torpaqlarını geri alırlar. "Adlısanlı nəsildən olan Atropat dövrünün savadlı, geniş dünya görüşünə malik adamlarından biri idi. O satrap olsa da zəifləməkdə olan imperiya tərkibində müstəqil siyasət yürütməyə çalışırdı. Hələ Qavqamela döyüşündən əvvəl Atropat İran şahı III Daranın ordusunda süvari kəşfiyyat dəstəsinə komandanlıq etmişdir. Makedoniyalı İskəndərin zəfər yürüşlərini qələmə alan Arrian öz xatirələrində Atropatın cəsurluğunu, çevikliyini qeyd edərək onun bölməsində kadusilər, albanlar və sakasenlərin iştirakını göstərir. İran ordusunun məğlubuyyətinə baxmayaraq Atropat İss, Qranik, Qavqamela döyüşlərində qəhrəmanlıqla döyüşmüşdür. Qavqamela döyüşündən sonra Atropat bir müddət məğlubiyyətə uğrayıb qaçan III Daranın tərəfini saxlayır. Buna görə də Əhəməni imperiyasının çox hissəsini ələ keçirən Makedoniyalı İskəndərin ona qarşı təd-

birlər görməsinə səbəb olmuşdur. O Midiya satrapı vəzifəsindən kənar edilir və e.ə.330-cu ildə bu vəzifəyə fars əyanı Oksidat təyin olunur. Lakin bu vəziyyət uzun sürmür. Makedoniyalı İskəndərin davam edən yuruşləri vaxtı Atropat öz loyallığını göstərə bilir. E.ə.328-ci ildə Atropat yenidən Kiçik Midiyanın satrapı olur. Bir siyasətçi kimi Atropat mövcud vəziyyəti qiymətləndirə bildi . O dərk etdi ki, çoxlu torpaqlar tutan, qüvvəsi qat-qat çox olan İskəndərə qarşı hərbi qarşıdurmanın hec bir əhəmiyyəti yoxdur. O danışıqlar, makedoniyalıların ali təbəqəsi ilə yaxınlaşmaq, İskəndərin tədbirlərinə qoşulmaq yolunu tutdu. O itaətlə İskəndərin əmirlərinin yerinə yetirdi. E.ə.324-cü ildə makedoniyaların Hindistanda olmasından istifadə edib özünü Parsua və Midiya hokumdarı elan edən Bariaks adlı bir nəfər üsyan qaldırdı. Tərəddüd etmədən üsyanı yatıran Atropat Bariaksı əsir tutub İskəndərə təhvil verdi. Atropat bir daha öz uzaqgörənliyini sübut edir. Atropata qarşı Makedoniyalı İskəndərdə rəğbət yarandığından o bir müddət onu yanında saxlayır və onun məsləhətlərindən faydalanır . Qələbə münasibəti ilə təşkil olunan məşhur Suz təntənələrində istirak edən Atropat öz qızını Makedoniya ordusunda süvari dəstələrə başçılıq edən, İskəndərdən sonra ən nüfuzlu şəxs olan Perdikkiyə verərək onunla qohum oldu . Atropatın mövqeyi daha da artdı. Dövrün siyasi nəbzini tuta bilən Atropat görkəmli diplomat olduğunu bir daha sübut etdi və ağır şəraitdən bacarıqla çıxdı. O tədricən düşmən satrapdan etibarlı müttəfiqə çevrildi. Atropat İskəndərlə bütün əlaqələri genişləndirirdi. Yürüşdən geri qayıdan İskəndər təntənəli şənliklər təşkil edəndə Atropat yaxınları ilə bərabər burada



çıxış etdi. Onun gətirdiyi qiymətli hədiyyələr içərisində 100 nəfərdən ibarət qadın döyüşçülər xüsusilə diqqəti cəlb edir. Arrianın qeydlərindən məlum olur ki, Atropat yeganə Əhəməni satrapı idi ki, İskəndər onu vəzifədən kənar etmədi, əksinə qonşu ərazilərin idarəsini də ona həvalə etdi. E. ə. 330-cu ildə Makedoniyalı İskəndərin vəfatından sonra yaratmış olduğu imperiya parçalandı. Atropat var qüvvəsi ilə nəzarət etdiyi vilayətdə sabitliyi qorudu. E.ə.-321-ci ildə Perdikkinin ölümündən sonra hakimiyyət uğrunda sərkərdələr arasında müharibələr başladı. Belə bir şəraitdə Atropat özünü müstəqil elan etdi. Bununla Azərbaycanda Atropatena (e.ə.-321-227-ci illər) dövləti yaranmış oldu. Bu dövlət şərqdə Makedoniya əsarətindən azad olan ilk dövlət sayılır. Yeni yaranan dövlətin paytaxtı Qazaka şəhəri oldu. Atropatın sonrakı həyatı, gördüyü işlər haqqında mənbələr hələlik ki, aşkar edilməyib. Yəqin ki, o ilk növbədə ölkədə bir sıra islahatlar keçirmiş, daimi ordu yaratmış, maliyyə sistemini nizamlamışdı. Atropat iqtisadiyyatın inkişafı üçün də müxtəlif tədbirlər görmüşdü. Atropatın nə vaxt ölməsi və taxt-tacını kimə vəsiyyət etməsi də məlum deyil.



*Gümüş pul*

## Artabaz

(e.ə. I əsr)

Atropatena hökmdarı, türk mənşəli Atropatilər sülaləsinin görkəmli nümayəndəsi.

E.ə. III-II əsrlərdə Atropatena dövləti öz varlığını qoruyub güclənə bildi. Dövrün antik müəlliflərindən olan Strabon "Coğrafiya" əsərində yazırdı: "Atropatenalılar Simbakanı zəbt edərək Sezarla dostluq münasibətlərinə girib sülh bağladılar, eyni zamanda onlar parfiyalıları da qane etməyə çalışırdılar. Onların yay paytaxtı düzənlikdə yerləşən Qazakadır, qış paytaxtı isə güclü Vera qalasıdır ki, parfiyalılar üzərinə yürüşü zamanı Antoni onu mühasirə etmişdi. Bu qala Antoninin yürüşünü təsvir edən və həmin yürüşdə iştirak edən dostu Dellinin verdiyi xəbərə görə Araz çayından 2400 stadi (təxminən 500 km) məsafədə yerləşir. Bu ölkənin bütün vilayətləri məhsuldardır, şimalı isə dağlıqdır, sərt və soyuqdur. Burada dağlı tayfalar olan kadusilər, amardlar, tapirlər, kırtalar və başqa xalqlar yaşayır. Kadusilər piyadaların miqdarına görə arianlardan bir az geridə qalırlar, onlar əla cidaatandırlar, dağlıq yerlərdə onlar atlıların yerinə vuruşurlar. Antoninin məğlubiyyətinin əsas səbəbi isə yerlərin çətinli-



*Qazaka*



yi deyil, bələdçi götürdüyü və dost hesab etdiyi ermənidir. E.ə. I əsrdə Atropatena dövrün siyasi hadisələrində böyük rol oynamışdı. Bu dövrdə Roma ilə Parfiya arasında Kiçik Asiyaya sahib olmaq üstündə qanlı müharibələr gedirdi. Artabaz iki dövlət arasında məharətlə manevr edərək diplomatik çeviklıklə Atropatenanın müstəqilliyini qoruyurdu. E.ə.53-cü ildə Parfiya Romanı məğlub etdikdən sonra Atropatena IV Fraatla əlaqələri genişləndirdi.

E.ə.38-ci ildə isə Antoninin başçılıq etdiyi Roma ordusu Parfiyanı məğlub etdi. O mühüm ticarət yollarının kəsişdiyi Atropatenanı tutmağa çalışırdı. Antoni e.ə.36-cı ildə 100 minlik ordu ilə Araz çayını keçərək Atropatenaya hücuma keçdi. O Varra şəhərini tutaraq Fraaspa şəhərinə tərəf hərəkət etdi. Artabazın başçılıq etdiyi ordu əhali ilə birlikdə şəhəri qəhrəmanlıqla qoruyurdu. Antoni tələsdiyindən 10 min nəfərlik ağır silahlarla və qala uçuran alətlərlə silahlanmış dəstədən ayrılır. Bu vəziyyəti müşahidə edən Artabazın müttəfiqi Parfiya çarı qəfil hücum edib romalıların bu dəstəsini məhv etdi. Fraaspa döyüşündə məğlub olan 35 min əsgərini itirən Antoni geri dönməyə məcbur olur. Artabaz romalılardan külli miqdarda qənimət və hərbi əsir ələ keçirdi. Antoni Atropatenanı tərk etdikdən sonra Parfiya çarı Fraat ilə Artabaz arsında qəniməti bölüşdürmək üstündə ziddiyyət yarandı. Bundan sonra Artabaz Parfiyadan üz döndərib Antoninin yanına elçilər göndərdi. Antoni elçiləri hörmətlə qəbul etdi və dostluğa razılıq verdi. Dostluq əlaqələrini daha da möhkəmləndirmək üçün Artabaz qızı Sotaranı Antoninin Kleopatradan olan oğlu Aleksandra verdi. Bundan sonra iki dövlət arasında

əlaqələr daha da yaxşılaşdı. Arxeoloji qazıntılar zamanı tapılan, üzərində Avqustun təsviri və "Böyük hökmdar Artabaza" sözləri həkk olunmuş gümüş sikkə bu dostluq əlaqələrini təsdiq edir. Antoninin ölümündən sonra Artabaz hakimiyyəti ələ alan yeni imperator Oktavianla da dost oldu. Yeni müttəfiqlərə arxalanan Artabaz qərbdəki vilayətlərdə daha fəal siyasət yürüdürdü.



*Zərdüşt peyğəmbər*

E.ə.32-ci ildə Parfiya ordusu Atropatenaya hücum edib bir sıra yaşayış məntəqələrində dağıntılar törətdi, əhalini qarət etdi. Artabaz vergi ödəməyə boyun olmaqla ölkəsini xilas edib Parfiya hücumunu dayandıra bildi. Lakin az keçməmiş Artabaz vergidən boyun qaçırıb yenidən müstəqil siyasət yürütməyə başladı. Artabazın dövründə ölkədə əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət inkşaf etmişdi. Yunan müəllifləri Atropatenada kəndlilərin yetişdirdiyi arpa-buğda, çəltik növlərindən, bağçılıq, bostançılıq məhsullarının bolluğundan xəbər verirlər. Otlaqlarda çoxlu mal-qara sürüləri, at ilxıları bəslənilirdi. Ammian Marsellin adlı müəllif yazır ki, "yaşıl otlaqlarda nəcib at sürüləri otlayır." Arxeoloji qazıntılar zamanı tapılan iri küplər yağ və şərab istehsalından xəbər verir. Şəhərlərdə sənətkarlar gildən qablar, dəmirdən silah və təsərrüfat alətləri, misdən qab-qacaq, qızıldan, gümüşdən bəzək əşyaları hazırlayırdılar. Elian yazır ki, Xəzər



sahilində yaşayan əhali balıqçılıqla da məşğul olurlar. Onlar balıq yağından və içalatından sürtkü yağı və yapışqan hazırlayırlar. Ticarətdə Makedoniyalı İskəndərin, Lisimaxın, Arşakilərin adına kəsilən gümüş pullardan (dirhəm və tetradirhəm) istifadə olunurdu. Atropatena əhalisi Zərdüşt dininə sitayiş edirdi. Zərdüşt kahinləri – maqlar və atravanlar həkim və müəllim kimi də fəaliyyət göstərirdi. Zərdüştilərin baş məbədi Qazaka şəhərində yerləşirdi. Hər il bura minlərlə ziyarətçi gəlirdi. Artobazın vəfatından sonra hakimiyyətə onun oğlu, Tatsitin "gözəl bədəni və əla mənəvi keyfiyyətləri ilə fəqlənən midyalı" adlandırdığı Ariobarzan sahib olur. Bu zaman ölkənin siyasi-iqtisadi sabitliyi qorunur, ərazisi daha da genişlənir. Qonşu dövlətlərlə ənənəvi əlaqələr qorunur.



*Gümüş pul*

Atropatilər sülaləsinin sonuncu nümayəndəsi Artabazın nəvəsi, uzun illər Romada yaşamış II Artabaz sayılır. 20-ci ildə onun ölümündən sonra Atropateniyada hakimiyyətə Arşakilər sülaləsi gəlir. Atropateniya Parfiyadan asılı vəziyyətə düşür. Atropatena Sasani işğalından sonra tarix səhnəsindən həmişəlik silinir.

## Teoman Tanhu

(e.ə. 220-e.ə 209-cu illər)

Mərkəzi Asiyada hun tayfalarının yaratmış olduğu ilk imperiyanın banisi, dünyanın ən məşhur hökmdarlarından biri. Arxeoloji qazıntılar, əldə edilən maddi-mədəniyyət nümunələri buralarda türk mənşəli əhalinin çox qədimdən məskunlaşdığını sübut etmişdir. Mərkəzi Asiyada yaşayan türk tayfalarına hun adını isə çinlilər vermişdir. E.ə.III əsrə aid bir Çin mənbəsində belə yazılmışdır: "Bu min il ərzində Hun dövləti bəzən böyüdü, bəzən də kiçildi. Hissələrə ayrılıb dağıldı, parçalandı, baş götürüb getdi və uzaqlaşdı."



***Hun döyüşçüsü***

Bu mənbədən açıq-aşkar görünür ki, hələ Böyük Hun imperiyasının meydana gəlməsindən çox əvvəl Çin ətrafında türk dövlətləri mövcud idi. E.ə. III əsrdə Tsin Şi Xuandi tərəfindən Çinin vahid dövlət halında birləşdirilməsi qonşuları üçün təhlükə yaradırdı. Odur ki, Çinin qonşuları müstəqilliklərini qorumaq üçün təcili dövlətlərini yaratmalı idi. Çoxsaylı qəbilələr halında geniş düzənliklərdə yarımköçəri və köçəri həyat sürən ovçuluq və maldarlıqla dolanan hunları birləşdirmək vəzifəsi Teoman Tanhunun üzərinə düşdü. Böyük Hun imperiyasi vaxtında yaşamış çinli tarixçi Sıma Tısyan öz əsərində belə yazır: "Bu dövrdə tunqhular güclü və yüercilər isə qüdrətli idilər.



Hunların xaqanının adı isə Tuman idi. Hunlar daima Çinə qarətçi yürüşlər etməklə onları vahiməyə salırdılar. Bu yürüşlərin qarşısını almaq üçün imperator sərkərdə Menq Tieni 224-cü ildə əks hücuma göndərdi. Sayca üstün və daha intizamlı Çin ordusunun qələbələri Hun dövlətinin təşəkkülünü sürətləndirdi. Tayfalardan birinə rəhbərlik edən Teoman tədricən digər tayfaları da öz ətrafında birləşdirməyə başladı. O, Yinşan dağlarını mərkəz seçdi. E.ə.220-ci ildə Teoman hunları vahid halda birləşdirdi və Tanhu titulunu qəbul etdi.



***Hunlar yürüşdə***

Tarixçilər Teoman Tanhunun 20 qəbiləni məğlub edib öz ətrafında birləşdirdiyini qeyd edir. O ilk növbədə hərbi-inzibati islahat keçirib böyük ordu yaratdı. Əsas inzibati vahid tümən hesab olunurdu. Bu bölgüdə əsas ərazi və əhali yox, hərbi xidmətə yararlı döyüşçü götürüldü. Yəni hər 10 min döyüşçü verən inzibati vahid tümən sayılırdı. Tümən başçıları hökmdarın əmri ilə döyüşçüləri toplayıb döyüşə hazır vəziyyətə gətirirdilər. Teoman tanhu qüdrətli ordu təşkil edən kimi ilk növbədə Çinə hücum edərək çoxlu qənimət əldə etdi. Çin imperatoru e.ə 215-ci ildə sərkərdəsi Menq Tieni yaxşı təhciz olunmuş 300 minlik ordu ilə hunlara qarşı göndərdi. Çin mənbələrində göstərilir ki, bir rahib falçılıq edərək imperatora

bildirmişdir ki, tezliklə peyda olan hunlar Çin imperiyasına son qoyacaq. Mənbədə qeyd olunub: "İmperator Tsin Şi Xuandi hunlardan böyük bir təhlükə gələ biləcəyini fal kitabından öyrənən kimi sərkərdəsinə 300 minlik bir ordunu hökmü altına alıb hunlara hücum etməsini əmr elədi. Sərkərdə irəliləyərək Sarı çayın cənubunda olan bütün zonaların hamısını tutdu. Çayın sahilləri boyunca sədlər çəkdirildi. Həndəvəri divarla əhatəli 44 qəza mərkəzi quruldu. Bu zonaları adamla doldurmaq üçün çoxlu əsgər gətirildi."



*Hun dövrünə aid toqqa*

E.ə.214-cü ildə hunlar məğlub olub geri çəkildi. İmperator geri çəkilməyin müvəqqəti olduğunu bildiyindən Böyük Çin səddinin çəkilməsi haqqında əmr verdi və dünyanın ən böyük tikintisinə başlanıldı.

213-cü ildən tikintiyə 10 minlərlə adam göndərilirdi. Bu zaman Teoman tanhu Orxan və Altay dağlarına gedən yol üstündə qala qurdurdu və mübarizəni davam etdirdi. O dövləti gücləndirmək üçün müxtəlif tədbirlər görürdü. Tayfalararası ziddiyyətə yol verməmək üçün tanhu hamı üçün otlaqlar ayırdı. Yinşan dağlarında dəmir filizinin bol olması sənətkarlığın inkişafına kömək etdi. Əsasən silah hazırlanmasına xüsusi diqqət yetirilirdi. Çinlə mübarizədə məğlubiyyət qonşu tayfaların hunlara qarşı çıxmasına səbəb oldu. Şübhəsiz ki, bu qarşıdurmada Çin diplomatiyasının da rolu olmuşdur. Onlar daim müxtəlif tayfalar arasında didişmə salırdılar.



Teoman tanhu yüecilərlə müharibədən sonra barışıq əlaməti olaraq böyük oğlu Meteni girov kimi onların yanına göndərdi. Çin sərkərdəsinin vəfatından sonra Teoman tanhu yenidən fəallaşdı. O ordusu ilə basqın edərək çinliləri məğlub etdi, onların yaratdığı məskənləri dağıtdı, əldə etdiyi çoxlu qənimətlə geri döndü. Çinin sərhədlərində yaşayan əhali qorxuya düşüb kütləvi surətdə mərkəzi rayonlara qaçmağa başladı. Sarı çayın ətrafları yenidən hun tayfalarının otlaqlarına çevrildi. Ömrünün son çağlarında Teoman müharibələrdən əl çəkir. O qeyri-adi gözəlliyə malik çinli cariyə ilə evlənir. Kölə qadın oğul övladı doğduqdan sonra Teomanla vəliəhd Metenin arasını vurmağa başladı. Ata-oğul arasında soyuqlluq yaranır. Yeni xatun öz oğlunu taxta çıxarmaq istəyirdi. O məqsədinə çatsa da oğlunu hakimiyyətə gətirə bilmədi.

E.ə.209-cu ildə Mete atasını öldürüb hakimiyyətə gəldi. Yeni tanhu analığını və ögey qardaşını da qətlə yetirdi.

# Mete

(e.ə209-e.ə.174-cü illər)

Böyük Hun imperyasının ən qüdrətli hökmdarı, Teoman tanhunun oğlu. Avropa mənbələrində daha çox Mode, qədim Çin mənbələrində isə Şanyuy kimi xatırlanan Mete e.ə234-cü ildə anadan olmuşdur. Teomanın ilk oğlu olduğundan o vəliəhd elan olunur. Şahzadə uşaqlığını ucsuz-bucaqsız çöllərdə at belində ovçuluq etmək və ox atmaqla keçirir. Mete haqqında yazılan Çin mənbələrində belə yazılmışdır: "Teomanın böyük oğlu var idi. Adı isə Mao-Tun idi. Sonradan Teoman çox sevdiyi bir xatun aldı. Bu xatun Tumana balaca bir oğlan doğdu. Bundan sonra Tuman Mao-tunu qovub, kiçik oğlunu taxta çıxartmaq istədi. Ögey anasının israrı ilə Tuman böyük oğlunu yüceilərə girovuna at kimi göndərdi. Mao-tun beləliklə yüceilərin yanında girov kimi qaldı. Az sonra atası yüceilərə qəfil basqın etdi. Yüceilər də Mao-tunu öldürmək istədilər. Lakin o özünün məhşur atına mindi və yurduna qaçdı. Mao-tun yüceilərin əlindən qaçıb geri dönərkən üstün qabiliyyəti ilə atası Teoman öyündü. Teoman oğlunu on minlik dəstəyə başçı təyin etməsi üçün sərəncam verdi." Yarıməfsanə olmasına baxmayaraq bu sənədin böyük əhəmiyyəti



*Mete*



vardır. Sənəddən məlum olur ki, Teomanla oğlunun arasında bir gərginlik olub. Buna baxmayaraq Mete öz tüməninin təlimi ilə ciddi məşğul olur. O ilk dəfə düşmənləri lərzəyə salan fitçalan ox düzəltdi. Bundan sonra öz atlılarına xüsusi sərəncam verdi. Sərəncama əsasən fit çalan ox hara atılarsa, hər kəs öz oxunu həmin hədəfə atacaqdır. Oxu bu hədəfə atmayanların isə başları kəsiləcəkdir. Bundan sonra Mete ova gedir. Ovda Metenin fitçalan oxunu atdığı hədəfə ox atmayanların başları oradaca kəsildi. Bundan sonra Mete bir gün şəxsən özü məşhur və yaxşı cins atına da bir ox atdı. Lakin Metenin sağında və solunda dayanan bəzi əsgərlər Metenin atına ox atmağa cəsarət etmədilər. Həmin adamların başı dərhal kəsildi. Yenə bir dəfə o çox sevdiyi arvadlarından birinə ox atdı. Xatuna ox atmağa cəsarət etməyənlərin başı dərhal kəsildi.

E.ə 209-cu ildə Mete atasını ova dəvət etdi və burada atasına ox atdı. Bundan sonra ögey anasına, kiçik qardaşına və atasına ox atmayanların hamısı öldürdü və taxta çıxdı. Hakimiyyətə gələn kimi ilk növbədə tabe olmayan məmurları edam etdirdi. O qısa müddət ərzində nizam-intizamı bərpa edib ordunu möhkəmləndirdi. Hun dövləti ilə müharibəyə bəhanə axtaran tunqhular elçi göndərərək Metedən əvvəl atını və arvadını, daha sonra iki dövlət arasında yerləşən boş bir çölü tələb etdilər. Mete tərəddüd etmədən atı və qadını tunqhulara göndərdi və narazılıq edənlərə "bir at və qadın qonşu dövlətlə münasibətdən artıq ola bilməz" cavabını verdi. Söhbət torpağa gəldikdə isə vəziyyət dəyişdi və o müharibə əmrini verib "vətən torpağını verməyi məsləhət verənlərin" hamısını edam etdirdi. Mete tunqhularla müharibəyə başlayıb onları dar-

madağın etdi. Metenin dövründə ilk dəfə olaraq adlı-sanlı adamlardan ibarət qurultay çağırmaq adəti yarandı. Mete xaqan tezliklə sayı 320 min nəfərə çatan ordu yaradıb qonşu xalqlar üzərinə uğurlu yürüşlərə başladı.



*Hunlar*

E.ə.203-cü ildə Mete qonşu tayfaların üzərinə basqınlar edib uğur qazandı və böyük bir əraziyə sahib oldu. Tarixçilər hunların 26 dövləti özlərinə tabe etdiklərini söyləyirlər.

E.ə.201-ci ildə Mete Şimali Çinə hücum edib Xan hökmdarı Tayuanı məğlub etdi. Bu hadisə Çində təşfişə səbəb oldu. Çin imperatoru Metenin yanına dostluq məktubu və bahalı hədiyyələrlə birlikdə elçilik göndərdi. Mete elçilərin casusluq edəcəyini bildiyindən hiyləyə əl atır. Onun əmri ilə ordu və mal-qara gizlədilər. Çin elçiləri Hun ərazisində yalnız qoca, qadın, uşaq və xəstələrin, arıq mal-qaranının olduğunu görürlər. Elçilərin sözündən sevinən Çin imperatoru hücum əmrini verir. E.ə.200-cü ildə müharibə başlayır. Hərbi hiylə işlədən Mete ilk döyüşdən sonra özünü qorxaq kimi göstərib qaçdı. Az sonra Hun qoşunu qəfil geri dönüb Petenq yaylasında çinliləri mühasirəyə aldı. Çin imperatoru yeddi



günlük mühasirədən sonra Metenin arvadına qiymətli hədiyyələr göndərib kömək istədi. Mete ilə bağlanan müqavilədən sonra Çin imperatoru məğlub halda geri qayıtdı. Meteyə tabe olan ərazilər 10 milyon km-i keçdi. Çin imperatoru e.ə. 192-ci ildə ailəsindən bir qızı Meteyə verdikdən sonra bir müddət sakitlik yarandı.

E.ə.182-ci ildə hunlar Çin sərhəddindən bəzi yaşayış məntəqələrini qarət edib zəngin qənimət əldə etdilər. E.ə.176-cı ildə hunlar Çinə qəfil yürüş edib parlaq qələbə qazandılar. Qorxuya düşən imperator zəngin hədiyyələrlə Meteyə məktub göndərib hər il vergi ödədiyini xatırladıb basqınların dayandırılmasını xahiş etdi. Mete vusun tayfaları ilə müharibəyə başlayıb onları da məğlub etdikdən sonra Çini şərqdən, şimaldan, qərbdən mühasirəyə almış oldu. Çin dövləti dağılmaqdan qurtulmaq üçün Meteyə göndərdikləri hədiyyələri artırmağa məcbur oldu. Eyni zamanda hunlarla düşmən tayfalarla gizli əlaqələrin yaradılmasına cəhd edildi. "Orta Asiyada əli ox və yay tuta bilən tayfaları öz hökmü altında nizama salan" Mete xaqan e.ə.176-cı ildə vəfat edir. Hakimiyyətə gələn oğlu Kiyak da atasının siyasətini davam etdirir.

## Künçin tanhu

(E.ə.160-e.ə.127-ci illər )

Böyük Hun imperiyasının qüdrətli hökmdarlarından biri, Metenin nəvəsi. Tarixi ədəbiyyatda onun adı həmçinin Kün tanhu və Cün-cen xaqan kimi xatırlanır. Metenin vəfatından sonra Böyük Hun imperiyasında hakimiyyətə oğlu Kiok sahib olmuşdu. Onun dövründə imperiyanın yüksəlişi davam etmişdi. O hakimiyyətə gələn kimi qərbə yürüş təşkil edərək yüeçiləri qəti məğlubiyyətə uğratdı. Mənbələr onu "düşmənin başından içki qabı" düzəltdiyindən bəhs edir. Bundan sonra o diqqətini Çinə yönəldir. O e.ə.166-ci ildə 140 minlik ordu ilə Çinə böyük yürüş təşkil etdi və zəngin qənimətlə geri döndü. Bundan sonra Çin imperatoru illik vergini gecikdirməyə cürət etmədi. E.ə.160-ci ildə isə hakimiyyətə Künçin tanhu sahibləndi. O taxta çıxan kimi Çinlə dostluq müqaviləsini təzələdi. Buna baxmayaraq çinlilər e.ə.159-cu ildə üç istiqamətdə hunlar üzərinə basqın etsələr də məğlub oldular. Bu barədə mənbədə yazılmışdır: "Hunlar Şanq-cünə böyük bir axına keçdilər. Imperator onlara qarşı adlı-sanlı bir sərkərdənin başçılığı ilə ordu göndərdi. Sərkərdə Yuanq bir neçə on çinli əsgərlərlə dəstəsindən ayrıldığı bir vaxtda üç hun əsgərini



*Ordugah*



gördü və onlarla yaxın məsafədən döyüşə girdi. Üç hun əsgəri atla çapa-çapa geri dönüb ox atdılar, başçını yaralayıb, on çinli əsgəri öldürdülər. Bundan sonra sərkərdə onlara qarşı yüz atlı göndərdi və oxçuları təqib etdi... Sərkərdə geri qayıtdı. " Çinlilərin məğlubiyyətindən sonra hunlar müntəzəm olaraq Çinə basqınlara başladılar. Bu illərdə bir sıra çinlilər səfir kimi Hun torpaqlarında olur və qeydlərində türk adətlərindən, onların məşğuliyyətlərindən bəhs edirlər. Hunların əsas məşğuliyyəti köçəri maldarlıq olsa da onların bəziləri sənətkarlığın müxtəlif sahələri və ticarətlə məşğul olurdu. Onlar geniş çöllərdə qəbilələr halında yaşayırdılar.

E.ə.157-ci ildə Çinin şimalında əyalət hakimləri imperatora qarşı üsyan qaldırdılar və kömək üçün Künçinə müraciət etdilər. Tanhunun göndərdiyi ordu gələnə qədər imperator üsyanı yatırdı. Hunlar yol boyu yerləşən Çin şəhərlərini qarət edərək geri döndülər. Həyatları üçün qorxan bəzi çinli məmurlar da hun çöllərinə qaçırlar. E.ə.156-ci ildə Çin imperatorunun göndərdiyi elçilər tanhunun yanına gəldilər. Yeni müqaviləyə əsasən sərhəddə iri bazarlar açıldı. Hunlar öz mal-qaralarını, atlarını burada istədikləri çin malına dəyişə bilərdi. İmperator hər il xərac ödəməyi öhdəsinə götürürdü. E.ə.152-ci ildə imperator qızını Hun tanhusuna ərə verir. Gəlinin ətrafında olan çinlilər əslində casusluq edir və Künçinin ailəsinə nifaq salmağa çalışırdılar.

E.ə.148-ci ildə gözlənilmədən hun dəstələri yenidən Çinə soxulub qarətlə məşğul oldular. Sıma Tısyan yazırdı: "E.ə.148-ci ildə sülh müqaviləsinin olmasına baxmayaraq hunlar Yen zonasına axına keçdilər. İki ay sonra iki hun

bəyi Çinə sığınmaq üçün ətrafındakılarla birlikdə gəldilər. Daha sonra hun böyüklərindən Su Lu və onun beş adamı da gəlib Çinə təslim oldular. İmperator daha sonra Çinə sığına biləcək digər hun bəylərini təşfiq etmək üçün onlara böyük rütbələr verdi." E.ə. əvvəl 141-ci ildə Çində müharibə tərəfdarı olan Bu imperator taxtına çıxdı. O hunlara nifrət etsə də ilk vaxtlar bunu biruzə vermirdi və dostluq müqaviləsini təzələyib tanhuya çoxlu hədiyyə göndərdi. O bir neçə il ərzində 300 min nəfərlik ordu yaratdı. Yalnız bundan sonra imperator hunlara zərbə vurmaq qərarına gəlir. Açıq döyüşdən çəkinən imperator əvvəlcə hiyləyə əl atır. O sərkərdə Han-kuo adlı birisini Künçinin yanına göndərir. Sərkərdə xaqana bildirir ki, Ma-i şəhərinin başçısını öldürüb şəhərdəki çox zəngin malları ona vermək istəyirlər. Xaqan 100 minlik ordu ilə Çin səddini keçib Ma-i şəhərinə çatdı. İmperatorun 300 minlik ordusu şəhər ətrafında gizlənib hunların şəhərə girməsini gözləyir. Xaqan Vo çou şəhərinə girdi.



*Kurqandan tapılan əşyalar*



Ma-i şəhərində 100 milə qədər məsafəyə çatanda əylənmək məqsədilə ova çıxır. Ov zamanı dərələrdə başlı-başına buraxılan sahibsiz heyvan otlamasını görən tanhu şübhəyə düşür və Vo-cou şəhər başçısının köməkçisini tutaraq işgəncə qorxusu ilə ondan hər şeyi öyrənir. Hun ordusu geri dönür. Tanhunun əmri ilə çinli xəbərçiyə yüksək titul verilir. Çin ordusu hunların qayıtmasından xəbərdar olub pusqudan çıxır. Uğursuzluqdan qəzəblənən imperator sərkərdə Banq Cuini edam etdirdi.

E.ə.129-cu ildə Künçin Çinə yeni yürüş təşkil etdi və qələbə qazandı. İmperator bütün qüvvələrini səfərbər edib Hun imperiyasına qarşı hücum əmrini verdi. Çin ordusu məğlub oldu, sərkərdələrdən biri-Lu Kuanq əsir düşdü. Maraqlısı budur ki, bu vaxt Çin imperiyasında əhalinin sayı 50 milyon nəfər çatırdı, yəni hunlardan 15 dəfə çox idi. Bundan sonra Künçin ölənə qədər çinlilər Böyük Hun imperiyasına hücum etməyə curət etmədilər. Künçinin vəfatından sonra hakimiyyətə oğlu sahib olur. Bundan sonra Hun dövlətində yavaş-yavaş tənəzzül başladı.

E.ə.121-ci ildə imperator ordusu ilk dəfə Hunlarla döyüşdə qələbə qazandı və şahzadələrdən birini əsir tutdu.

## Çiçi xan

(e.ə 58-e.ə.36-cı illər )

Böyük Hun imperyasının qüdrətli xanlarından biri. E.ə I əsrdə hunlar arasında hakimiyyət uğrunda mübarizə güclənmiş və dövlət içərisində ikitirəlik özünü göstərməyə başlamışdır. E.ə 68- e.ə.60-cı illərdə hun ölkəsində baş verən dəhşətli quraqlıq və qıtlıq fəlakətlərə səbəb oldu. Çin qaynaqlarının dediyi kimi qıtlıq və soyuqdan insan və heyvanların onda altı və ya onda yeddisi ölmüşdü. Bundan istifadə edən bəzi tayfalar üsyan edərək Çinin təhriki ilə hücumlar edirdi. E.ə.62-ci ildən hunlar özlərinə gəldilər, qiyamçı tayfaları cəzalandırmaq üçün tədbirlər gördülər. Bu dövrdə baş verən hadisələr haqqında Çin mənbələri yazır: "Bu xaqan 9 il xaqanlıq etdi və öldü. Bu xaqan taxta çıxtığı vaxt ulu xatunu işdən kənar etmişdi. Bundan sonra xatun gizlicə dərhal sağ müdrik şahzadəsi ilə əlaqə yaratdı. Hunların sağ müdrik şahzadəsi Lunq-cenqdəki qurultayından ayrılarkən Xatunun vasitəsi ilə xaqanın çox xəstə olduğunu və nüfuzlu adamların oradan uzaqlaşdırımalarını xəbər verdi. Ulu xatunla onun kiçik qardaşı böyük Çiçi şəhzadə dövlət katibi kimidir. Həmin şahzadə yeni xaqan tərəfindən uzaqlaşdırıldı. Yeni



*Hunlar vürüsdə*



xaqan çox qəddar və amansız oldu. Bir çox soylı adamları edam etdirdi və ya vəzifələrindən uzaqlaşdırdı. Onların yerinə qohumlarını təyin etdi. Bundan sonra ölkənin qərbi ilə əlaqələr son dərəcə gərginləşdi. Şahzadələrin bəziləri Çində sığınacaq tapdı. Tezliklə hunlar arasında üsyanlar başladı. E.ə. 58-ci ildə özünü öldürdü. Hakimiyyət onun oğluna, anası və arvadı çinli olan Huhanyey Tanyuya çatdı. O dərhal əmisi, çox hörmətli Çiçi xanı öldürmək üçün adam göndərdi. Ziddiyətlər imperiyanın parçalanmasına səbəb oldu. Çiçi xan imperyanın qərbində mustəqil xanlıq qurdu. Bir il sonra ölkənin beş yerində hun şahzadələri özlərini xaqan elan etdilər. Mənbələrdən məlumdur ki, Çiçi xan çox güclü bir şəxsiyyət olmuşdur. O qısa bir müddət ərzində üç yalançı xaqanı məğlub edə bildi. Huhanyey qardaşı ilə mübarizəyə başlasa da Çiçi xan tərəfindən məğlub edildi. O yaxınlarını topladı və Çinə qaçdı. E.ə. 51-cı ildə o imperator tərəfindən qəbul edildi. Onun üçün qeyri-adi bir mərasim təşkil edildi. Çiçi xan isə heç nə olmamış kimi Çinə qarşı sülh siyasətini davam etdirirdi. Hər il Çınə elçilər göndərir, hədiyyələr verirdi. Eyni zamanda Hun imperyasında geniş işlər görülür, nizam-intizam bərpa edilir, qiyamlar yatırılır, ordu möhkəmləndirilirdi. O ulu babası Metenin yolu ilə gedərək ilk növbədə qərbə yürüş edir. Birinci növbədə qırğızlar itaətə gətirildi və vusun dövləti məğlub edildi. Orxan çayı sahilində özünə mərkəz yaradır. Bir il sonra uyğur və tinq-linq tayfaları da hunlara tabe edildi. Çiçi xan qərb əyalətlərdəki dincliyi təmin etdikdən sonra Tanrı dağlarının qərb hissələrinə qayıtdı. Vusun hökmdarı ona qarşı 8 min nəfərlik ordu göndərsədə uğur qazanmadı. Çiçi xan Çinlə

yaxşı əlaqələr saxladığını sübut etmək üçün oğlunu imperatorun yanına göndərdi. Bununla belə e.ə. 43-cü ildə Çiçi xan imperatorun göndərdiyi çinli elçiləri öldürür. İndiyə qədər səbəbi bilinməyən hadisə iki dövlət arasında vəziyyəti gərginləşdirir. Çin elçilərinin öldürülməsi Çinlə Hunhanyey arasında əhdnamə bağlanmasına səbəb oldu. Bu əhdnaməyə əsasən hunlar Çinlə həmişəlik dost olacaq və Çiçi xana qarşı birgə mübarizə aparacaqlar. Əhdnamə qədim hun mərasimi ilə bağlandığından imperator qəzəblənsə də onu bağlayanları cəzalandırmadı. Çinin köməyi ilə Hunhanyey Hun imperiyasına qayıdır. Çiçi xan isə qırğız yurdunda qurdurduğu mərkəzə köçür. Çin mənbələri yazırdı: "Çiçi xan Çin elçilərini öldürdükdən sonra Çinə qarşı ittiham olundu.



*Süvari*

Bundan əlavə Hunhanyey xanın da getdikcə gücləndiyini eşitdi. Hər an ona hücum ediləcəyindən qorxdu. Uzaqlaşıb getməyi qərara aldı. Bu vaxt Səmərqənd hökmdarı tez-tez vusunların hücumuna məruz qalırdı. Buna görə o Çiçiyə elçi göndərib yanına dəvət etdi. Cici xan ordusunu götürüb qərbə yönəldi. Səməqənd hökmdarı isə dövlətin nüfüzlu adamlarını onu qarşılamaq üçün göndərdi. Üstəlik hədiyyə alaraq bir neçə min dəvə, qatır və at



yola saldı. Yolda soyuğa düşüb coxlu əsgər itirən Çiçi xan 3000 adamla gəldi. Səmərqənd hökmdarının xaişi ilə bunlara qarşı bir necə dəfə axın etdi. Onların paytaxtı Ciku şəhərini tutub coxlu adamlarını öldurdu. Bundan sonra Çiçi xan cox qürrələndi. Səmərqənd hökmdarının qızını, adlı- sanlı adamlarından bir neçəsini, əhalidən bir necə yüz adamı öldürtdü. Onlardan bəzilərini çaya atdırdı." Çiçi xan burada özunə qala tikdirdi. Daha sonra Fərqanədəki tayfalara elci göndərib onlardan ilik vergi tələb etdi. Tədricən yenidən guclənən hunlar Çinə məktub gondərib əlaqələri bərpa etməyi təklif etdilər. Lakin imperator təklifi rədd edib müharibəyə başladı. Onunula birlikdə 15 tayfanın ordusu Çiçi xan üzərinə hücuma kecdi.

E.ə. 36- cı ildə həlledici döyuş oldu. Acıq döyüşə girməyən Çiçi tikdirdiyi qalaya sığındı. Şiddətli döyüş iki gün davam etdi. Çiçi xanın arvadları da divar üzərinə cıxıb düşmənə ox atırdılar. Çiçi xan həlak olduqdan sonra çinlilər qalanı aldılar. Qalada 1600-ə qədər ölmüş hun tapıldı. 1200 adam isə əsir düşdü. Çiçi xandan sonra Huhanyey Hun imperiyasının yeganə hökmdarı oldu. Lakin bundan sonra hunları əvvəlki gücü qalmamışdı. Hun dövləti Çindən asılı vəziyyətə düşdü. Çin tərəfindən sıxışdırılan hunların bir hissəsi qərbə doğru köç etdi. Sonrakı ilərdə Hun taxtına Çin istədiyi adamı cıxarmağa başladı.

# Şı-tao xan

(18-46-cı illər)

Böyük Hun imperiyasının xanlarından-tanhularından biri. Əsl adı Yü olan tanhu mənbələrdə həmçinin Hu-tu-erh kimi də xatırlanır. Eramızın əvvəllərində Hun imperiyası xeyli zəifləmişdi. Çin imperatorları burada istədikləri adamları hakimiyyətə gətirirdilər. Çinli şahzadələrlə evlənmək bir adət halını almışdı. 13-cü illərdə taxta çıxarılan Vu-Liu tanhu çox zəif şəxsiyyət olmuşdu. Əsl adı Hsien olan xan ucqardakı vilayətlərdən birinə başçılıq edirdi və heç kim onun hakimiyyətə gəlməsini güman etmirdi. Lakin digər şahzadələr də müxtəlif səbəblərdən qısa müddət ərzində vəfat etdikərindən Hsien vəliəhd elan olunur. Eyni zamanda imperatorla yaxşı münasibətlə olması da onun xaqan olmasına kömək etdi. Xaqanın şəxsiyyəti və siyasətini şərh edən Çin tarixçiləri onun haqqında yazırdılar: "Xaqan Çin qızıl və ipəklərinə qarşı o qədər acgöz və tamahkar idi ki, imperator Vanq Manqın alçaltmaları qarşısında belə diz çökdü. Xaqanın ögey bacısı çinli şahzadəyə ərə getmişdi və baş nazir vəzifəsini icra edirdi. O taxta çıxan kimi böyük qardaşı, şahzadə Yünün vəzifəsini aşağı salaraq Sol Kuli şahzadəliyinə təyin etdi. Həm də onun oğlu girov kimi Çinə göndərilir. Bir qədər keçdikdən sonra girovun



*Hun hökmdarı*



imperatorun əmri ilə edam olunması məlum olur. Bu hadisə hunlara qarşı böyük təhqir olsa da, xaqanın vecinə gəlmədi. Yü də isə çinlilərə qarşı kin və ədavət hisslərini gücləndirir. O tabeliyində olan döyüşçülərin sayını tədricən artırmağa başlayır. Çin səfirləri bunun səbəbini soruşduqda isə qonşu tayfalarının basqın təhlükəsini göstərir. Bir neçə dəfə üsyançıları təqib bəhanəsi ilə Çinə soxularaq şəhər və kəndləri qarət etməklə döyüşçülərin rəğbətinin qazanmışdı. 18-ci ildə qardaşının ölümündən sonra Yü Şi-tao xan adı ilə hakimiyyətə gəlir. İlk vaxtlar o Çinə qarşı niyyətini biruzə vermir. 19-cu ildə bacısını və bacısı oğlanlarını səfir kimi Çinə göndərir. Lakin imperator qardaşı nəvələri olan səfirləri həbs etdirir. Yalnız anaları qaçaraq canını qurtarır və Hun paytaxtına qayıdır. Bir il sonra Şi tau yenidən bacısını səfir kimi Çinə göndərir. Şi tau ordu quruculuğunu başa çatdıraraq ətrafdakı tayfaları özünə tabe etməyə başlayır.

23-cü ildə Çində böyük bir üsyan baş verir. Üsyan nəticəsində tanhunun çinli qızından olan ögey bacısı, onun çinli əri, övladları və nəvələri imperator sarayında qətlə yetirilir. Bununla Çin özü hunlu tərəfdarlarına zərbə vurmuş olur və tanhunun güclənməsinə səbəb olur. Tanhu Çindəki üsyançılarla gizli əlaqə qurur və onlara kömək adı ilə ordusunun başında yürüşə başlayır. Mənbələr qeyd edir ki, Metedən sonra heç bir Hun hökmdarı Çinə belə güclü axın edə bilməmişdi. Uğurlu yürüşdən sonra Hunlar çoxlu qənimətlə, minlərlə mal-qara, top-top ipəklə, qızıl-gümüşlə geri qayıdırlar. Bu zaman Şi-taonun 60 yaşı tamam olmuşdu. Uğurlu yürüşlər Şi-taonun nüfuzunu xeyli artırır. 25-ci ildə yeni Çin imperatorunun elçiləri tanhunun yanına

gələndə kobud cavab almaları bunu sübut edir. O, elçilərə belə demişdi: "Hunlarla Çin əvvəl başdan böyük və kiçik qardaş kimidir.


*Hun bəzəkləri*

Hunlar arasında iğtişaş baş verəndə Çin imperatoru Hsyan (e.ə.73-e.ə.48-ci illər) bizə yardım etdi və Hunanyey taxta çıxdı. Buna görə hörmət bəsləməklə özümüzü Çinə sədaqətli bildik. Lakin indi Çinin daxilində böyük iğtişaşlar törəndi. Çin Vanq Manq tərəfindən ələ keçirildi. Hunlar ordu çəkib ona hücum etdi. Beləliklə Çinin sərhəd zonaları boş qaldı. Xan sülaləsi yenidən qalxıb yüksəldi. Bu mənim gücümlə həyata keçdi. İndi də siz bizə bir böyük kimi hörmət bəsləməlisiniz."

Bundan bir il sonra hunlar Çin ərazisinə yenə yürüş təşkil etdilər. Tanhu əsas diqqəti Böyük İpək yolu üzərindəki şəhərlərin işğalına yönətldi. Bir neçə il ərzində Türküstandakı 55 şəhərin hakimi hunlardan asılılığı qəbul edib illlik bac ödəməyə başladılar. 33-cü ildə Çin hun xaqanına qarşı 100 minlik ordu göndərdi. Lakin onlar heç bir şey əldə edə bilməyib geri qayıtdı. Çin tarixçilərinə görə hunların gücü bundan sonra getdikcə artağa başladı. Hunlar Türküstandakı Yarkənd və Şanşan bəyliklərini də ələ keçirtdilər.



41-ci ildə Şi Tao Çinə yürüş təşkil edib qənimət ələ keçirdi. Tezliklə manqol tayfaları da məğlub edildi və Ural dağlarına qədər olan ərazilər Hun imperiyasına qatıldı.

45-ci ildə hunların Çinə növbəti basqını da qələbə ilə nəticələndi. Tanhunun tədbirləri nəticəsində Türküstanda asayiş yaradıldı, ticarət canlandı. 46-cı ildə gözlənilmədən Hun imperiyası təbii fəlakətlərlə üzləşdi. Əvvəlcə çəyirtkələrin basqını ardınca şiddətli quraqlıq düşdü. Bir neçə min km. Genişliyindəki ərazi tamam çılpaq qaldı. Otlar və ağaclar qurudu, çaylar, göllər yoxa çıxdı. Aclıq və xəstəlik üzündən heyvanların çoxu, insanların yarısı öldü. Həmin il Şi Tao və onun yerinə keçən xaqan öldü. Hun imperiyasında hakimiyyət uğrunda mübarizə başladı. İtaət altına alınmış tayfaların və şəhərlərin üsyanı başladı. Hun imperiyası parçalandı. Vuan tayfaları özlərini müstəqil elan etdilər. Çin yenidən hunları sıxışdırmağa başladı. Yarkənd hakimi özünü xaqan elan etdi. Hun imperiyasının ərazisində bir neçə dövlət yarandı.

# Czyuy zyuyir

(147-172-ci illər)

Hun imperiyasının hökmdarlarından–şanyuyların-dan biri, Doulouçu xaqanın oğlu. II əsrin əvvəllərindən başlayaraq hunlar yenidən güclənməyə və Çinə qarşı çıxmağa başladılar. Belə qiyamlardan biri hələ 96-cı ildə baş vermişdi. Sərəkərdə Kan Yinqin tərcüməyi- halında bu haqda belə yazılmışdır: “Sərkərdə köməkçısı Kon Yinqi gedilə biləcək ən uzaq zonalara qədər göndərdi. 97-ci ildə o Lionq-cou˙ zonasından altı komandanlığın 20 min əsgərini göturub yola düzəldi. Bu ordunun əsgərləri tibetli və cənublulardan ibarət idi. Arxa Turfan bəyliyinə hücum edildi və məğlubiyyətə uğradıldı, mindən artıq adam əsir düşdü.” 102-ci ildə Kaşqar və Kuçada hunların



*Hunlar döyüşdə*

qaldırdığı üsyan da yatırıldı. 106-cı ildə hunların daha böyuk usyanı başladı. Bu usyan 10 ilə qədər davam etdi. İmperatorun göndərdiyi üç sərkərdə ordusu ilə bərabər məhv edildi. Üsyandan ruhlanan digər tayfalar da Çinə hücumlar etdilər. Türküstandkı bəzi bəyliklər hunların nəzarəti altına keçdi. Hunlar İpək yolunun bir hissəsini ilə keçirib karvanlardan xərac toplayırdılar. Çin hökuməti üsyanı çox çətinliklə yatıra bildi. İmperator hunlarla syanbi arasındakı ziddiyyətləri qızışdırırdı. Doubouçu xaqanın vaxtında Çin-hun mühasibətlərində bir qədər sabitlik yaradıldı.

147-ci ildə Czyuy-zyuyirin taxta cıxmasından sonralar vəziyyət yenidən dəyişdi. Yeni xaqan əvvəlcə ordusunun sayını artırdı və daxili nizam-intizamı möhkəmləndirdi. O üsyançılarla mubarizə bəhanəsi ilə Çin hökumətindən xeyli sursat ala bildi. Bu zaman Çində hakimiyyət ugrunda mübarizə getdiyindən imperator hunlarla münasibəti kəskınləşdirməməyə çalışırdı. 147-ci ildə Hun torpağında çinli zabitlərdən biri çiban cıxarmasından vəfat edir. Ziddiyyət yaratmaq istəyən qüvvələr imperator sarayına belə məlumat verirlər ki, zabitin ölümünə səbəb hunlu həkimlərin dərman verməkdən imtina etməsidir. İmperator hunlar üzərinə beş minlik ordu göndərsə də uğur qazana bilmir. 151-ci ildə Czyuy zyuyirin qosunu syanbiləri darmadağın edib Çin torpaqlarina soxulur. Burada xeyli kənd, bir necə qala və səhər qarət edilir. Hunlar zəngin qənimətlə geri qayıdırlar. İmperator elçilərini göndərərək izahat tələb edir. Xaqan isə elçiləri aldadır, hücumun ondan icazəsiz baş verdiyini və günahkarların cəzalandırılacağını bildirir. 153-cü ildə Çin ordusu hücuma keçsə də uğur qazana bilmədi. Bundan istifadə edən Xotan, Kaşqar kimi bəyliklər də Çin itaətindən çıxdılar.

155-ci ildə hunlarla syanbi tayfaları arasında qanlı döyüş oldu. Döyüşdə syanbilər qalib gəldilər. 200 min hun syanbilərin təzyiqinə dözə bilməyib qərbə doğru köçməyə başladı. Məğlubiyyətə baxmayaraq hunlar mübarizəni

sonrakı illərdə də davam etdirirdilər. Loulan bəyliyi hunların tərəfinə keçib çinli tacirlərə hücum etdilər. Nəticədə Çinin qərb ölkələri ilə əlaqələri xeyli zəiflədi. Hadisələr zamanı Türküstanda yeni bir türk bəyliyi – Çerçen bəyliyi yarandı. Hunların bir hissəsi Çinin şimalında məskən saldılar.

157-ci ildə çinli sərkərdə tanqut tayfalarının köməyi ilə hunlara basqın etdi. Basqından sonra Çinin şimalında məskunlaşan hunlar köhnə yurdlarına dönməyə məcbur oldular. Ancaq bir ildən sonra Çin syanbilərə qarşı mübarizədə hunlardan kömək istədi. Çin mənbələri yazırdı: "Çin sərkərdəsi Huan cənubi Hun hökmdarının ordularına komandanlıq edərək Çin sərhəddindən çıxdı və syanbilərə hücum edib onları yendi." Az keçməmiş hunlar yenidən hücumlara başladılar. 166-cı ildə Czyuyzyuyirin dəstələri bəzi siyanbi tayfaları ilə birləşdi və Çinə qarətçi basqınlar etdi. İmperator onlara qarşı bütün qüvvələrini səfərbər etməyə məcbur oldu. Bu yürüş hunların II əsrdə Çinə sonuncu uğurlu basqınları oldu. İmperatorun əmrinə əsasən sərhədlər möhkəmləndirildi. Yeni qalalar tikildi, hərbi qarnizonlar çoxaldıldı. Böyük bəxşilər



***Hunlara məxsus abidələr***



hesabına hunların ətrafındakı tayfalar ələ alındı. Hər tərəfdən sıxışdırılan hunlar özünü müdafiyəyə keçdilər.

170-ci ildə xaqan imperatora məktub göndərib keçmişdəki dostluq əlaqələrini bərpa etməyi təklif etdi. İmperator bir sıra şərtlərlə təklifi qəbul etdi. Çindən xaqanın yanına səfir göndərildi. Əvvəllər hunların nəzarəti altında olan bəzi yerlərdə karvanları qorumaq bəhanəsi ilə Çin qarnizonları yerləşdirildi. Xaqan ailə üzvlərindən bir neçəsini saraya girov kimi göndərdi. Bir neçə il ərzində hun torpaqlarında qıtlıq və aclıq başladı. 177-ci ildə imperator xaqana məktub göndərib qocaldığını, dövləti idarə edə bilmədiyini bildirdi və hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Xaqan oğlunun xeyrinə taxt-tacından imtina etdi və bir neçə aydan sonra vəfat etdi. II əsrin sonlarından etibarən hunların tənəzzülü sürətləndi. Çin imperatoru minlərlə hun ailəsini impreriyanın daxili rayonlarına köçürdir. Hun torpaqlarında çinli kəndlilər yerləşdirilir, Budda məbədləri, monastlar tikildi. Hun imperiyası şərqdən syanbilərin, tibetlərin basqınına məruz qaldı.

III əsrin sonlarında hun tayfalarının Ural dağlarına, oradan qərbə, Volqa çayının ətraflarına kütləvi köçü başladı. Bununla belə öz mövcudluqlarını qorudular və IV-V əsrlərdə yeni türk dövlətlərini qura bildilər.

## Qao-çzu

(279-310-cu illər)

Hunların məşhur hökmdarlarından biri. III əsrdə hun tayfaları Çinin əsarəti altına düşmüşdü. Çin məmurlarının məlumatına görə Şimali Çində yaşayan hunların sayı 30 min alaçıq idi, yəni 180 min nəfərə çatırdı. Onları assimlyasiya etmək məqsədilə imperator Çao Çao 5 yerə ayırıb hərəsini bir yerdə yerləşdirmişdi. Belə bölgü aymak adlanırdı. Hər aymaka hun sərkərdəsi – şua başçılıq edirdi. Şualar isə çinli məmurun – simanın nəzarəti altında fəaliyyət göstərirdi. Çinli məmurların özbaşınalıqları həddən artıq idi. Onlar hunların mal-qarasını əllərindən alır, övladlarını oğurlayıb Şandun bazarında satırdılar. İmperator müxtəlif üsullarla hun xanlarının nüfuzunu sarsıdırdı. Hun şahzadələri saraya çağırılır, onlara çin dili və ədəbiyyatı, Budda dini öyrədilir, qiymətli hədiyyələr vermək, vəzifələrə təyin etmək, çinli qızlarla evləndirmək yolu ilə xalqdan uzaqlaşdırılırdı. III əsrin əvvəllərində hun tayfalarının başçısı Lu Doo olmuşdur. O, 63 il hunlara başçılıq etsə də çox sönük şəxsiyyət olmuşdur. İmperatorun tələbi ilə o oğlanlarını girov kimi saraya göndərmişdir. Saraya göndərilənlərdən biri də Lyu Yuan olmuşdur. III əsrin 40-cı illərində anadan olan şahzadə həm zahiri görkəmi, həm də ağlı ilə digərlərindən fərqlənirdi. İmperator sarayında o, istedadı ilə dərhal nəzəri cəlb edir. Saray salnamələri onun qeyri-adi gücü, hündür boyu, kəskin ağlı haqqında məlumatlarla zəngindir. Lyu qısa müddət ərzində çin dilini, ədəbiyyatını öyrənir, konfutsi, Budda təlimi, bir sıra elmlərlə tanış olur. O at çapmağı, sərrast ox atmağı, qılınc vurmağı, nizə ilə zərbə vurmağı ilə başqalarından fərqlənirdi. Hərbi məşqlərin birində o, imperatorun qardaşının



diqqətini cəlb edir. Məşqdən sonra onu yanına dəvət edir və onun davranışına, danışıq qabiliyyətinə valeh olur. Qısa müddət ərzində o, zabit vəzifəsinə təyin olunur. Bir neçə tapşırığı uğurla yerinə yetirdikdən sonra vəzifəsi daha da yüksəlir və imperatora təqdim olunur. Lyu imperator Sima İnin də rəğbətini qazanır və imperator məiyyətinə daxil edilir. Lyu sarayda Huyan adlı şahzadə ilə evlənir. 276-cı ildə atasının vəfatından sonra Lyu hun tayfalarının başçısı təyin olunur. Bununla belə o, sarayda saxlanılır. 290-cı ildə o, orduya komandan təyin olunub üsyançılara qarşı göndərilir. Parlaq qələbələr qazanan Lyu Yuanın şöhrəti Çinin hər yerinə yayılır. Geri qayıdan sərkərdə Şanhuy rütbəsi və zəngin hədiyyələrlə təltif olunur.



*Hunlar döyüşdə*

İmperator onu məsləhətçi təyin edir. Lyu sarayda yaşasa da daim hunlarla maraqlanır, çinli məmurların özbaşınalıqlarına qarşı çıxırdı. Tezliklə o, beş hun aymakının başçısı təyin olunur. 300-cü ildə imperatora qarşı "8 şahzadə" qiyamı başlayır. Ordunun bir hissəsi qiyamçıların tərəfinə keçir. İmperator ordusu dalbadal məğlub olur. Lyu imperatordan xahiş edir ki, hunların içinə gedib ordu toplamağa icazə versin. İmperator çarəsiz qalıb icazə verir və Lyu "Böyük şanyuy" elan olunur. Lyu Yuan 20 gün içərisində 50 minlik ordu toplayıb qiyamçılar üzərinə hücum edir. 304-cü ildə Lyu Yuan Çzoqoçen əyalətini tutaraq Xan van titulunu qəbul edir və müstəqilliyini elan edir. Beləliklə şimali Çində Şimali Xan (304-329-cu illər)

adlı yeni dövlət yaranır. Az sonra o quli və syanbi tayfalarını da məğlub edib özündən asılı vəziyyətə salır. Lyu 305-ci ildə Pinyan şəhərini ələ keçirib paytaxta çevirir. Bundan sonra Lyu geniş quruculuq işlərinə başlayıb islahatlar keçirir. O, dövlət quruculuğunda Çin təcrübəsindən istifadə edir. Mənşəyindən aslı olmayaraq bacarıqlı adamlar müxtəlif vəzifələr təyin olunur. Lyu daimi ordu yaradıb onlara başçılığı iki sərkərdəyə tapşırır. Sərkərdələrdən Lyu Yao vaxtı ilə Çzin imperiyasında quluq etmiş, digəri hun Şi Le isə bazardan alınıma qul olmuşdu. Yaratdığı dövlətdə bir sıra vergi və mükəlləfiyyətləri ləğv etməklə, rüşvətxor məmurları edam etməklə iqtisadiyyatın inkişafına nail olur. Ölkənin hər yerindən savadlı adamlar Lyunun sarayına gəlməyə başlayır. 207-ci ildə hunlar yenidən Çin əyalətlərinə yürüşə başlayırlar. Onun gəldiyini eşidən Çinli döyüşçülər qaçır, şəhər və kəndlər bir-birinin ardınca hunlara təslim olurdu. 308-ci ildə Loyan əyalətinin hakimi hunları məğlub edir. Həmən il Lyu özünü Qao Çzu adı ilə imperator elan edir və ikinci arvadı hun mənşəli Ladu Danu baş xatun təyin edir. 309-cu ildə yenidən hücuma kecən hunlar Layon əyalətini ələ keçirirlər. Mühasirəyə düşüb qacmağa cəhd edən Çinli əsgərlərdən 30 mini çayda boğulur. Daha 20 min əsgər qılıncdan kecirilir. Şimali Xan dövlətinin ərazisi daha da genişlənir. Bir aydan sonra alınmaz hesab edilən Xuqyan qalası süqut edir. Hunların əlinə çox zəngin qənimət keçir. 310-cu ildə Qou Çzunun vəfatından sonra hakimiyyətə növbə ilə oğlanları sahib olur. Onlar dövlətin ərazisini daha da genişləndirib sonuncu Çzin imperatoru Min Dini əsir tutub öldürdülər. 329-cu ildə Şimali Xan dövləti süqut edir. Onun torpaqlarını Çjao dövləti ələ keçirir.



## Oroys

(e.ə. I əsr)

Azərbaycanın şimalında yaranmış Albaniya dövlətini adı bizə məlum olan ilk hökmdarlarından biri. Albanların dili və milliyyəti haqqında yazılı qaynaqlar çox az məlumat verir. Bununla belə Albaniyada yaşayan tayfaların türkdilli və Qafqazdilli olması heç kimdə şübhə doğurmur. Albaniyanın ərazisinə müasir Azərbaycan respublikası ilə yanaşı Dağıstanın cənub torpaqları, Gürcüstanın şərqi, Ermənistanın bir hissəsi daxil idi. Antik müəlliflər Albaniya haqqında geniş məlumatlar vermişlər. Məsələn, e.ə.I əsrdə yaşamış yunan tarixçisi Strabon "Coğrafiya" əsərində yazır: "Qafqazdan keçən Araz çayı çox zəngin düzənliklərdən əzəmətlə axaraq Albaniyaya axır. Albanlar maldarlığa çox meyllidirlər. Onlar İberiya ilə Kaspi dənizi arasında yaşayırlar. Albaniyadan keçən Kür çayı və ona tökülən başqa çaylar torpağın məhsuldarlığını artırır. Belə ki, bu torpaq nəinki cürbəcür bostan məhsulları, həm də hər cür bitkilər yetişdirir. Orada adamlar gözəlliyi və hündür boyu ilə seçilirlər, eyni zamanda onlar ürəyiaçıqdırlar, xırdaçı deyillər. Piyada halda da, at belində də yüngül və ağır silahlarla vuruşurlar. Məhz onlar 60 min piyada və 22 min atlını silahlandırırlar. Onların hökmdarları da çox gö-



*Alban abidəsi*

zəldir. İndi, doğrudur, onlarda bir hökmdar bütün tayfalara başçılıq edir, onlarda 26 dil vardır. Onlar allahlardan Helios, Zevs və Selenaya sitayiş edirlər. Kahin vəzifəsini onlarda hökmdardan sonra ən hörmətli adam yerinə yetirir. Albanlar qocalığa, nəinki valideynlərinə, həm də yad qocalara həddindən artıq hörmət edirlər. Mərhumla bərabər onun bütün əmlakını basdırırlar." Albaniyada əhali dörd təbəqəyə bölünmüşdü. Musa Kalankatuklunun məlumatına əsasən e.ə. I əsrdən başlayaraq Albaniyada əsasını Aran adlı hökmdarın qoyduğu Aranilər sülaləsinin hökmdarlığı başladı. Adından göründüyü kimi bu sülalə türk mənşəli olmuşdur. E.ə.II əsrdə Karfageni məğlub edən Roma Aralıq dənizi hövzəsində ən güclü dövlətə çevrilmişdi. Romalılar şərqə hərəkət etməklə Cənubi Qafqaz dövlətləri üçün ciddi təhlükə yaradırdı. E.ə.I əsrdə Roma sərkərdəsi Pompey Albaniya və İberiya torpaqlarına hücum etmək qərarına gəlir. Təslim olmaq tələbini rədd edən albanlar Pompeyi torpaqlarına buraxmaq istəmədilər. Romalılar Xəzər dənizinin sahillərini işğal etmək, Albaniyadan keçərək Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yolunu ələ keçirmək istəyirdilər. Məhz bu müharibələrlə əlaqədar olaraq Albaniya hökmdarı Oroysın adı çəkilir. Dövrün tarixçiləri onu cəsur, qoçaq və vətənpərvər şəxs kimi təsvir edirlər. E.ə. 66-cı ildə Pompey Cənubi Qafqaza çatır. Soyuqlar düşdüyündən romalılar Kür çayı vadisində qışlamağı qərara alırlar. Pompey ordusunu üç məntəqədə yerləşdirdi. Onlardan birinə Pompey özü, digərlərinə köməkçiləri Lusi Flank və Metell Seler başçılıq edirdi. Alban padşahı Oroys təcili mübarizəyə hazırlaşır. Antik müəllif Plutarxın qeydlərindən məlumdur ki, albanlar 40 min nəfərlik



ordu toplayırlar. Albanlar Kür çayını keçərək romalıların hər üç düşərgəsinə eyni vaxtda hücum etmək qərarına gəlirlər. Oroys özü dəstələrin birinə rəhbərlik edirdi. O Metell Selerin üstünə getdi, qalan qoşun Pompey və Lusi Flakka zərbə vurur. Oroysın ehtimalına görə belə olduqda romalılar bir-birinə kömək edə bilməzdilər. E.ə. 66-cı ildə Kürün sahillərində dəhşətli döyüş oldu. Albanlar daha güclü və təcrübəli Roma ordusuna məğlub oldular. Oroys onlarla sülh bağlamağa məcbur oldu. Bundan sonra romalılar İberiyaya hücum etdilər. Albanlar isə arxadan romalılara hücum etmək, tələ qurmaqla təhlükə yaradırdılar. Buna görə Pompey yenidən albanlarla müharibə aparmaq qərarına gəlir. E.ə. 65-ci ildə onlar qəfil hücum təşkil etməklə albanları məhv etməyə çalışdılar. Onlar bir neçə albanı tutub işgəncə verdilər, ölümlə hədələyib qısa və rahat yolla aparmağı tələb edirlər. Əvəzində əsirlərə çoxlu mükafat vəd olunur. Lakin vətənpərvər əsirlər, ölümü satqınlıqdan üstün tutaraq düşməni aldadırlar. Onlar romalıları uzun, çətin yolla apararaq xeyli ləngidirlər. Əhali romalıların hücumundan xəbər tutub müdafiyəyə hazırlaşır. E.ə. 65-ci ildə Qanıx çayı sahilində döyüş olur. Bu dəfə albanlara padşahın qardaşı, istedadlı sərkərdə Kozis başçılıq edirdi. Al-


*Alban qabları*

banlar romalıların qarşısını nəyin bahasına olursa olsun kəsib ölkəyə buraxmaq istəmirdilər. Alban ordusunun əsas gücü atlılardan, romalıların isə piyadalardan ibarət idi. Pompey hiyləyə əl atıb albanları mühasirəyə salır. Şiddətli döyüş zamanı Kozis Pompeyə çatıb ona nizə ilə zərbə vurur. Pompeyin zirehli paltarı onu ölümdən xilas etdi. Cavab zərbəsi ilə Kozis ölümcül yaralanır. On minlərlə adam itirən albanlarin bir hissəsi geri çəkilib meşədə gizlənir. Pompeyin əmri ilə meşəyə od vurulur, albanların bir hissəsi yanır. Antik müəlliflərdən Appian yazır ki, romalılara qarşı qadınlar da vuruşurdular. Əsir düşənlər içərisində ağır yaralar almış çoxlu qadın var idi. Alban qadınlarının qorxmazlığı romalıları heyrətə gətirirdi. Roma imperiyasında bundan sonra amazonkaların Albaniyada yaşaması haqqında şaiyələr yaranır. Oroys qoşununun qalanı ilə dağlara çəkilib mübarizəni davam etdirir. Pompey onunla barışıq bağlamağa çalışır. Oroys onun yanına gəlməsə də məktub göndərib sülhə razılq verir. Pompey yürüşü davam etdirə bilməyib geri dönür. Uğursuzluğunu ört-basdır etməyə çalışan Pompey geri qayıtmağını burada həddən artıq ilan olduğu ilə izah edir. Oroys dağlardan enərək ölkədə abadlıq işlərinə başlayır. O, həmçinin iberlərlə hərbi ittifaq yaradır. E.ə. 36-cı ildə romalılar 100 minlik ordu ilə yenidən Qafqaza hücum edirlər. Albaniya Romadan asılılığı qəbul edir. Lakin az sonra albanlar yenidən itaətdən boyun qaçırıb müstəqilliklərini bərpa edirlər. Romalıların Albaniyaya sonuncu yürüşü 84-96-cı illərə təsadüf edir.



## Balamir

(370- 400-cü illər)

Qərbi Hun imperiyasının banisi, məşhur türk hökmdarlarından biri. Böyük Hun imperiyasinın tənəzzülündən sonra Çin tərəfindən təzyiqlərə məruz qalan hun tayfalarının böyük bir hissəsinin qərbə doğru uzunçəkən və çox əziyyətli bir hərəkəti başlandı. Dünya tarixində bu hadisə "Xalqların böyük köçü" kimi xatırlanır. Hunların təsiri altında nisbətən zəif xalqlar – alanlar, qotlar, vestqotlar, ostqotlar da yavaş-yavaş öz əzəli yaşayış yerlərini tərk etməyə məcbur olurlar. Onlar tənəzzül etməkdə olan Roma imperiyasının ərazilərinə köçürdülər. Türklərin əsas rol oynadığı "Xalqların böyük köçü" 200 il davam edərək IV-VI əsrləri əhatə edir və slavyanların Bizansda məskunlaşması ilə başa çatır. Proses nəticəsində tayfaların hamısında icma quruluşu tamam dağıldı, nisbətən qabaqcıl feodalizm quruluşu meydana gəldi. Hunlar əvvəlcə Ural dağlarına, Volqaboyu düzənliklərə gəlmiş, oradan Qafqaza, Şərqi Avropaya, Qara dəniz sahillərinə yayılmış, döyüşə-döyüşə Fransaya qədər yol qət etmişlər. Yürüşdə iştirak edən çoxsaylı hun tayfalarınlan birinin- haylandur türklərinin başçısı Balamir idi. Avropa alimləri sözün mənasını "müharibə gətirən" kimi izah etsələr də türk tədqiqatçıları "övlad bəxş edən" kimi tərcümə edrilər. Tədricən güclənən, istedadı, təşkilatçılıq bacarığı ilə seçilən Balamir digər hun tayfalarını da öz ətrafında birlləşdirdi. Bizans mənbələrində onun adı IV əstin II yarısından etibarən Balamber kimi xatırlanır.

370-ci ildə Don çayı sahilində alanları məğlub etdikdən sonra Balamir dövlətinin əsasını qoymuş olur. O,



*Hunlar Qalliyada*

Metininin 15-ci, Tanhu Çiçinin 9-cu nəsildən nəvəsi olub. Alanları məğlub etdikdən sonra hunların nəzarəti altında olan ərazilər Xəzər dənizinin şimalından Azov dənizi və Qara dənizin sahillərinə qədər uzanırdı. Onlar dənizin o tərəfinə keçə bilmədikləri üçün bir müddət burada qaldılar. Bir gün ova çıxan bir dəstə hun döyüşçüsü iri bir maralı qovmağa başlayırlar. Hunlar onu dənizə tərəf sıxışdırırlar. Mühasirəyə alınan maral qəfildən dənizə atılaraq heyrətdən donub qalan adamların gözü qarşısında Taman yarımadasından Krıma keçir. Hunlar dayaz keçidi bu yolla kəşf edirlər. Qısa müddətli hazırlıqdan sonra hunlar sürətlə Krıma keçib onları gözləməyən tayfaları darmadağın edirlər. 371-ci ildə Krımın tutulması burada quldarlıq quruluşunun dağılması ilə nəticələndi. 374-cü ildə hunlar Ostqot çarı Germanirixin ordusu ilə müharibəyə başladı. Otuz ildən bəri ostqotlara başçılıq edən Germanirix Avropanın qüdrətli hökmdarlarından hesab olunurdu. O, bir sıra tayfaları özünə tabe edərək 100 min nəfərlik ordu təşkil etmişdi. Odur ki, hamı hunların məhvinə əmin idi. Həlledici döyüş 375-ci ildə baş verdi və sayca az hunların qələbəsi ilə nəticələndi. Germanirix bu məğlubiyyətə dözməyərək yerə bərkidilən qılınc üstünə atılmaqla özünü öldürdü. Başsız qalan Ostqot tayfaları Balamirin hakimiyyətini qəbul etdi. Balamir Hunimundunu (mənası hun ağızlı-yəni onlardan asılı) onlara başçı təyin etdi. Hunların qələbəsi Avropanı silkələdi, Qərbi Roma imperiyasında böyük təşvişə səbəb oldu. Roma salnaməçiləri öz qeydlərində Balamber adlndırdıqları hun hökümdarından heyranlıq və qorxu ilə yazırdılar. Balamir Dnestir çayı sahilində Vestqot kralı Atanarix ilə müharibəyə başladılar. Vestqotlar hunların qabağını kəsmək üçün indi də Maldova ərazisində qalan və "Atanarix sədləri" adlanan torpaq səddlər quraraq mübarizəyə başladılar. Üzbəüz döyüşdən çəkinən Atanarix hiylə ilə hunları aldadıb mühasirəyə salmaq istədi. Balamir isə bu hiylədən xəbər tutub Dnestir çayını keçdi və qəfil hücumla vestqotları darmadağın etdi. Məğlub olan Atanarix kiçik bir dəstə ilə Romaya qaçıb imperatorun himayəsini qəbul etdi. Barbar tayfaların çoxu hunlara tabe olmaq məcburiyyətində qaldı. 378-ci ildə Balamir döyüşkən german tayfalarını da darmadağın etdi. Onlar Dunay çayını keçərək Roma imperiyasının torpaqlarına daxil oldu. Bundan sonra bir neçə il sabitlik yarandı. Balamir itaət altına aldığı ərazilərdə nizam- intizamı möhkəmləndirmək üçün tədbirlər gördü. Ordusunu gücləndirdi, dö-

yüşçülərin sayını artırdı. Hunlar yeni işğallara hazırlaşaraq kəşfiyyatı genişləndirdilər.



*Mis qazan*

395-ci ildə Roma imperatoru Feodisi ölür. Ölməmişdən əvvəl o imperiyanı iki oğlu arasında bölür. Bundan istifadə edən Balamir yenidən hərbi əməliyyatları bərpa edir. Xaqanın başçılıq etdiyi hun ordusu Balkan yarımadasına daxil olur. Basık və Kursık adlanan sərkərdələrin başçılıq etdiyi digər hun ordusu isə Şimali Qafqazdan keçib Dərbənd vasitəsilə Azərbaycana, oradan da Kiçik Asiyaya, Anadolu torpaqlarına, Suriyaya, Dəclə-Fərat çayları ətraflarına daxil oldu. Şəhər və kəndlər, bütöv vilayətlər qısa müddət ərzində hunların əlinə keçir. Hun imperiyasının ərazisi daha da genişlənir. Qələbə və qənimətlərlə geri dönən Balamir bir qədər dincəlmək qərarına gəlir. O böyük ziyafət təşkil edir. 400-cü ildə keçirilən ziyafətdə xaqanın yaxınları, sərkərdələri, döyüşlərdə qəhrəmanlığı ilə seçilən döyüşçülər, digər tayfaların rəhbərləri iştirak edir. Qonaqlıq bir neçə gün, gecə-gündüz davam edir. Xaqan çoxlu hədiyyələr paylayır. Qonaqlığın qızğın vaxtında qəfildən Balamirin burnundan qan açılır və o huşunu itirir. Həkimlərin səyinə baxmayaraq xaqan vəfat edir. Hakimiyyətə onun oğlu Ulduz xan keçir.



## Pua

(422-434-cü illər)

Qərbi Hun dövlətinin hökmdarlarından biri, Qaradonlu xaqanın oğlu. Balamirin vəfatından sonra taxta onun oğlu Ulduz xan keçmişdi. O da imperiyasının ərazilərini genişləndirmək siyasətini yürüdürdü.



*Hun süvarisi*

Ulduz xan 404-cü ildə Dunay çayını kecərək Bizansa daxil oldu və böyük qənimətlə geri döndü. 405 və 409-cu illərdə hunlar yenə də Bizansa başqınlar etməyə başladılar. Basqınların qarşısını olmaq üçün Bizans imperatoru hunların yanına elçilər göndərir. Ulduz xanın vəfatından sonra yerinə keçən Qaradonlu xaqan Bizansa hücumları dayandırıb Ural dağlarına çatan şərq sərhədlərinin möhkəmlənməsi ilə məşğul olmağa başladı. Qaradonlu xaqanın və oğlu Muncuq xanın dövründə Hun imperiyası heç kimlə müharibə aparmadı. Sülh dövründə ölkə iqtisadiyyati inkişaf edirdi. Hun tayfalarının əsas məşğuliyyəti yenə də maldarlıq idi. Hun ailəsinin bir neçə qulu olurdu. Bu qullar mal-qaranı otarır, ev işlərini görür, keçə, kəndir hazırlayırdılar. Hunlar içərisində dəmirçiliklə, silahsazlıqla, zərgərliklə məşğul olan istedadlı ustalar seçilirdi. İmperiya ərazisində yaşayan oturaq əhali əsasən əkinçiliklə məşğul

olurdu. Tabe xalqlar hunlara xərac ödəyir, orduya əsgər verirdilər. Tacirlər sərbəst şəkildə imperiyada ticarətlə məşğul olurdu. Ticarətdə romalıların kəsdiyi solid adlanan pullardan istifadə edirdilər. Muncuq xaqan ölərkən oğlanları Atilla və Bleda uşaq olduğundan hakimiyyətə qardaşı Rua keçir. Rua digər qardaşları Aybars və Oxtarı özünə köməkçi təyin edir. Rua babasının siyasətini davam etdirərək diqqətini qərbə çevirib Qərbi Roma və Bizansla müharibəyə hazırlaşdı.

V əsr Bizans tarixçisi Paniyalı Priks yazırdı: "Rua hunların hökmdarı idi. O İstr sahillərində məskən salıb romalılarla ittifaqa girən amilvur, ittimar, tonosur, voysk və başqa xalqlara qarşı müharibəyə başlamaq niyyətində idi." Bizans imperatoru açıq döyüşdə hunlarla bacarmayacağını bilirdi. Odur ki, onu daxildən zəiflətməyə çalışırdı. İmperatorun casusları hunların itaətində olan tayfaların başçılarını qızılla ələ alaraq onları üsyana təhrik edirdi. Rua qüvvələrini səfərbər edərək 422-ci ildə Bizans üzərinə yürüş etdi. Bizans imperatoru II Feodsi əvvəlcə toqquşmağa hazırlaşsa da sonra bacara bilməyəcəyini başa düşdü. Onun elçiləri tələsik Ruanın yanına gəlir. Bağlanan müqaviləyə əsasən Bizans hunların nəzarəti altında olan tayfalarla birbaşa əlaqə saxlamamalı və hər il 350 librə (175kq) qızıl xərac verməli idi. Bizans təhlükədən qurtardıqdan sonra Qərbi Roma ilə müharibəyə hazırlaşır. II Feodosi romalıları məğlub edib keçmiş Roma imperiyasını bərpa etmək niyyətində idi. O muzdla 100 min nəfərlik ordu yığıb İtaliyaya səfərə çıxır. Qərbi Roma imperatoru təşviş içində sərkərdəsi Aetiüsü Ruanın yanına göndərib kömək istədi. Ruanın 60 min nəfərlik ordusu Bizansa qarşı çıxdı. II Feodosi bunu bilən kimi döyüşə başlamadan sülh təklif etdi. Rua razılaşır. Bizans imperatoru böyük miqdarda xərrac ödəyib geri dönür. Barbar tayfalarına mənsub Aetiüs hunlara rəğbət bəsləyir, Ruaya atası kimi hörmət edirdi. Ruanın köməyi ilə o Romada konsul vəzifəsinə qədər yüksəlmişdi. Aetiüs qotlarla müharibədə məğlub olduqdan sonra Ruanın yanına qaçaraq bir neçə il burada yaşamışdı.





*Hun kurqanları*

V əsrin 20-ci illərinin sonunda Hun imperiyasında yenə sakitlik yaranır. Rua imperiyanın daxilində intizamı möhkəmləndirmək üçün bir sıra tədbirlər görür. Geniş imperiyada yaşayan Hun tayfaları içərisində iqtisadi əlaqələr çox zəif idi. Xaqan əlaqələri genişləndirməyə cəhd edir, tayfa başçılarının özbaşınalıqlarının qarşını alırdı. O tabe

edilən barbar tayfaları arasında vuruşmaları qəti qadağan etmişdi. Xaqan sözünə baxmayanlara ciddi cəza verirdi. Ruadan narazı qalanlar Bizansa qaçaraq imperatora sığınırdılar. Bizans imperatorları qaçqınları himayə etməklə bərabər yenidən tayfaları qızışdırmağa başlayır. Rua yenidən müharibəyə hazırlaşır. O qardaşı Aybarsı şərq sərhədlərinin başçısı, digər qardaşı Oxtarı qərb sərhədlərinin başçısı təyin etdi. Daha sonra qardaşı oğlanları Atilla və Bledanı ordu komandanı təyin etdi. Bir neçə ay ərzində hərbi səfərbərlik başa çatdı. Casusları vasitəsilə baş verənlərdən xəbər tutan Bizans qorxuya düşdü və tez səfirlərini Hun imperiyasına göndərdi.

434-cü ildə sərhədi keçən elçilər Ruanın öldüyünü və qurultayda Atillanın yeni xaqan seçildiyini öyrəndilər. Yeni xaqan Atilla hakimiyyətə Bizansla uğurlu müqavilə bağlamaqla başladı. Müqavilə Dunay və Morova çaylarının birləşdiyi yerdə, Marqos qalasının yaxınlığında imzalandı. Danışıqları at belindən düşmədən aparan Atilla üstünlüyünü hamıya sübut etdi. Konstans sülhünün şərtlərinə əsasən Bizans ildə 700 librə (350 kq) qızıl bac verməli idi. Sərhəddə tacirlər sərbəst ticarət aparacaqdı. İndiyə qədər hunlardan qaçıb Bizansda gizlənənlər geri qaytarılacaqdı. Gələcəkdə qaçqınlar himayə edilməyəcəkdi. Müqavilə bağlanan kimi Bizans şərtlərə əməl etməyə başladı. İlk növbədə qaçqınlar geri qaytarıldı. Atillanın əmri ilə qaçqınların hamısı asılmaqla edam edildi. Atilla paytaxtına qayıdıb dövlət işləri ilə məşğul oldu.



## Atilla

(434-453-cü illər)



*Atilla*

Qərbi Hun imperiysının hökmdarı. Dünyanın ən qüdrətli hökmdarlarından biri. Uzun illər Avropanı tir-tir əsməyə məcbur edən Attilla Muncuq xanın böyük olğu olub bəzi məlumatlara görə 395-ci, digər məlumata görə 405-ci ildə anadan olmuşdu. Əmisinin himayəsi altında böyüyüb tərbiyə alan Atilla 434-cü ildə Ruanın vəfatından sonra qardaşı Buda (Bleda) ilə bərabər taxta çıxmışdı. O, qardaşı ilə bərabər 11 il hökmdarlıq etmiş, onun vəfatından sonra imperiyasını tək idarə etmişdi. Hakimiyyətə gələn kimi Bizansla çox sərfəli müqavilə imzalayan Atilla ilk növbədə ölkəsi ilə tanış olmaq qərarına gəlir. Şərq bölgəsinə səfər bir ilə qədər davam edir. Səfəri zamanı tayfalarla görüşub şikayətlərini dinləyən xaqan əmin-amanlıq yatırdır. Atilla müasir Macarıstanda Tokay şəhərini özünə paytaxt seçmişdi. Bir müddət burada yaşamış Roma tarixçisi İordan yazırdı: "Nəhəng çayları keçərək Atillanın mərkəzə çevirdiyi şəhərə çatdıq. Şəhərin ətrafına tirlərdən möhkəm hasar çəkilmişdi. Şəhərin mərkəzində kral sarayının qarşısında hökmdarın meydanı çox böyük idi. O imperiyasını buradan idarə edirdi." Bizansın qızışdırdığı acaritlərin qiyamını oğlanlarının başçılıq etdiyi ordu ilə yatıran

Atilla Reyn çayından Volqa çayına, Baltik dənizindən Balkan yarımadasına qədər uzanan imperiya yaradır. Tarixçlər Atillanın 45 iri tayfa birliyini özündən asılı vəziyyətə saldığını qeyd edirlər. Atillanın yanında məşvərətçi şura fəaliyyət göstərirdi. Atilla mühüm qərarlar verməmişdən əvvəl onları dinləyirdi. Onun sarayında bütün tabe xalqların nümayəndələri yaşayırdı. Xaqanın fərmanı hər bir xalqa öz dilində çatdırılırdı. Bütün tayfalar illik xərac ödəyir, orduya müəyyən qədər döyüşçü göndərirdi. Atilladan bütün Avropa qorxurdu. Onu "Tanrı qırmancı" Atilla adlandıran xristian dünyası həqiqətən xaqanın Ilahi tərəfindən onlara cəza olaraq göndərildiyinə inanırdılar. Atilla silahdaşlarına, sədaqətli şəxslərə qarşı nə qədər səxavətli, alicənab idisə, düşmənlərinə, xəyanətkarlara qarşı bir o qədər amansız adam olmuşdur.

440-cı ildə Bizans imperiyasında Marqos yepiskopu hunlara məxsus qəbirləri dağıdıb qarət etdi. Bu hadisə Bizansa qarşı müharibəyə başlamaq üçün bəhanə oldu. 200 minlik ordu toplayan Atilla 441-ci ildə yürüşə başlayır. Qısa müddət ərzində düşmənləri darmadağın edən hunlar Belqrad, Niş, Frakiya şəhərlərini ələ keçirib Dunay sahillərindəki qalaları darmadağın etdi. Atillanın uşaqlıq dostu, Roma ordusunun baş komandanı Aetiusun vasitəçiliyi ilə Bizans aman istədi və 443-cü ildə imperator oğlunu girov kimi Atillanın yanına göndərdi. Az sonra Burqund tayfaları üsyan qaldırdı. Atilla əmisi Oxtarın başçılığı ilə ordu göndərib üsyanı yatırdı. II Feodisinin ölümündən sonra hakimiyyətə gələn imperatriçə Pulxeriya və əri Markian səfir göndərib pulları olmadıqlarına görə bir daha xərac verməyəcəklərini bildirirlər. Eyni zamanda onlar bütün hərbi qüvvələrini Konstantinopol ətrafına



toplayırlar. 447-ci ildə Atillanın II Balkan səfəri başlayır. Yol üstündəki şəhərləri ala-ala hunlar Konstantinopol şəhərinə çatırlar. Həlledici döyüş başlamamış Bizans məğlub olacağını görür. İmperator tələsik ən yaxın adamlarından olan Anatoliosu Atillanın yanına göndərib sülh istəyir. Atilla sülhə razılıq verir. 448-ci ildə tarixə Anatolios barışığı kimi düşən sülh bağlanır. Sazişin əsas şərtləri bunlardır:

1. Bizans hərbi təzminat kimi 6000 librə (3000 kq) qızıl ödəyəcək.

2. Bizans Dunay çayı ətrafında beş günlük məsafədə ordu saxlamayacaq.

3. İki ölkə arasında ortaq bazar Hun imperiyasına qatılan Hiş şəhərində qurulacaq və tacirlər sərbəst ticarət aparacaq.

4. Bizans ildə 150 min solid qızıl pul xərac verəcək.

5. Əvvəlki sülhün şərtlərinə əməl olunacaq.

448-ci ildə Kostantinopoldan Hun imperiyasına səfirlik göndərilir. İmperator səfirlərdən birinə-Biqilaya sandıq dolusu qızıl verərək Atillaya qarşı sui-qəsd təşkil etməyi tapşırır. Lakin Atilla bundan xəbər tutub imperatorun planlarını pozur. Bizansı tabe etdikdən sonra Atilla Qərbi Roma ilə müharibəyə hazırlaşır. İki il davam edən hazırlıqdan sonra Atilla Roma imperatoruna müraciət edib bacısı Qonariyanı və cehiz olaraq Roma imperiyasının yarısını tələb edir. Tarixçilərin qənaətinə görə Qonariy özü vaxtı ilə Atillaya üzük göndərib evlilik təklif edibmiş. İmperator rədd cavabını verən kimi Atilla hücuma başladı. Müxtəlif mənbələrə əsasən Atillanın döyüşçülərinin sayı 300-500 min arası, romalıların isə 200-300 min arası olduğu söylənilir. 451-ci ilin iyununda indiki Fransanın Orlean şəhəri yaxınlığında Katalaun düzündə beş gün davam edən

döyüş başlayır. Roma ordusunun sağ cinahına Aetisun, sol cinahına qotların kralı Teodirix, mərkəzə isə alanların rəhbəri Sanqabir başçılıq edirdi. Döyüşün gedişində Teodorix, Hun sərkərdələrindən Atillanın qohumu Lauderx başda olmaqla 180 min adam həlak olur. Teodorixin oğlu ordusunu götürüb vətəninə qayıdır. Məğlubiyyətdən sonra romalılar geri çəkilir. Roma şəhərində dəhşətli qarışıqlıq yaranır. Qalliya Hun imperiyasına qatılır. Bir neçə günlük istirahətdən sonra Atilla yürüşünü davam etdirir. O Şimali İtaliya şəhərlərini bir-birinin ardınca işğal edərək Roma şəhərinə yaxınlaşır.

452-ci ilin yazında Roma papası I Leonun başçılıq etdiyi nümayəndə heyəti Atillanın görüşünə gələrək aman istəyirlər. Atilla xahişi qəbul edərək əldə etdiyi çox böyük qənimətlərlə kifayətlənir, Romanı dağıtmayıb geri dönür. Onun şəhərə hucum etməməsinin əsas səbəbi isə mədəniyyət abidələrini dağıtmaq istəməməsi, hun ordusunda sürətlə yayılan xəstəlk və Şimali İtaliyadakı aclıq idi. İmperiyasının ərazisi 5-6 milyon km-lik məsafəni əhatə edən Atilla Avropanın tam hakiminə çevrilir. 453-cü ildə Burqund şahzadəsi ilə evlənən Atilla toy gecəsi ağzından və burnundan qanaxmadan vəfat edir. Atillanın ölümü hunlar arasında matəmə səbəb olur. Atillanı qızıldan, gümüşdən və poladdan hazırlanan üç tabuta qoyub zəngin xəzinə ilə birlikdə Dunay çayı adalarının birində dəfn edirlər. Atillanın iki qadından azı dörd oğlu və iki qızı olduğu məlumdur. Atillanın ölümündən sonra taxta sahib olan böyük oğlu İlək və ikinci oglu Dənqəzlik xaqan olduqdan az sonra german tayfaları ilə döyüşdə həlak olurlar. 470-ci ildə Qərbi Hun imperiyası parçalanır. Onun geniş torpaqlarında yeni dövlətlər yaranır.



## Ağsuvar xan

(470-490-cı illər)



*Ağ Hun süvarisi*

Böyük Hun imperiyasının süqutundan sonra türk tayfalarının qərb torpaqlarına köçü başlandı. Bu köç prosesində hun tayfalarının bir hissəsi cənub torpaqlarına çəkilərək Qərbi Türküstanda möhkəmlənmiş və Ağ Hun imperiyasını (420-567-ci illər) yaratmışdılar. İlk vaxtlar pərakəndə halda yaşayıb köçəri maldarlıq və ovçuluqla dolanan hunlar tədricən güclənir, şəhər həyatı, sənətkarlıq, ticarət, əkinçiliklə məşğul olmağa başlayır. Digər qəbilələr daha güclü Uar və Hun qəbilələrinin ətrafında birləşirdilər. Yavaş-yavaş Ağ Hunlar müasir İranın şərqini, Əfqanıstanı, Hindistanın şərqini, Tacikistanı, Özbəkistanı, Qazaxıstanın çox hissəsini ələ keçirirlər. Yerləşdikləri bölgəyə görə onları "Orta Şərq hunları" da adlandırırlar. Ağ Hunlar özlərini Xionit adlandırırdılar. Məşhur hökmdarlarından birinin adı ilə onları həmçinin Eftalitlər dövləti kimi tanıyırlar. Tədqiqatçılar bir müddət onları fars dilli xalq kimi qələmə verməyə cəhd etsələr də keçən əsrin ortalarından aparılan araşdırmalar onların türk olduğunu qəti sübut etdi. IV əsrin ortalarından Ağ hunların bir hissəsi Zərdüşt dinini, bir hissəsi xristianlıq və buddizmi qəbul etdi. Sasani şahı I Şapur (309-379-cu illər) şərqdən gələn təhlükəni hiss edib onlarla mübarizəyə başladı. Bir neçə illik səmərəsiz, ağır maddi və insan itkilərindən sonra şah hunlarla bacara bilməyəcəyini görüb mübarizəni dayandırdı. 356-cı ildə

çoxlu hədiyyələr hesabına İran-Hun ittifaqı yaradıldı. İran eftalitlərin köməyindən istifadə etməklə uğurlar qazandı. 375-ci ildə Bəlx hakimi İrana qarşı üsyan qaldıranda Ağ hunlar ona tərəfdar çıxdılar. Şapur üsyanı yatırıb hunlarla əlaqələri möhkəmləndirdi. 384-cü ildə eftalitlər İran ordusunda qulluq etməyə başladılar. Buna baxmayaraq hunlar vaxtaşırı İran torpaqlarına basqını davam etdirirdilər. 430-cu ildə Bəhram Gurun Sasani taxtına çıxmasından sonra hunlar təkrar hücuma keçib farsları məğlubiyyətə uğratdılar. Bu illərdə Eftalitlər dövləti artıq formalaşmışdı. Onun ilk paytaxtı Səmərqənd yaxınlığındakı Paykənd şəhəri olmuşdur. 470-ci ildə Ağ Hun dövlətinin hökmdarı Ağsuvar xaqan oldu. Mənbələrdə onun adı həmçinin Axşunvar və Xoşnamaz kimi də xatırlanır. Onun tədbirləri nəticəsində dövlət daha da gücləndi və əraziləri genişləndi. Ölkədə gümüş pulların kəsilməsinə başlandı. O, Sasani imperiyasının daxili işlərinə qarışır, istədiyi tələbləri onlara qəbul etdirir, illik xərac alırdı. Ağsuvar xanın himayəsi ilə İranda hakimiyyətə Firuz şah gəlir. Bunun əvəzində o Ceyhun çayı ətrafındakı Tirmiz və Vasgird vilayətlərini Ağsuvar xana bağışlayır. Bundan əlavə o gözəl qızını da türk xaqanına vəd vermişdi. Bir qədərdən sonra xaqan elçi göndərib şahın qızını tələb etdi. Şah sarayındakı gözəl kənizlərdən birini qızı adı ilə xaqana gəlin göndərir. Ancaq şahın bu hiyləsinin üstü açılır. Qəzəblənən Ağsuvar xan gəlini, onunla birlikdə gələnlərin hamısını, Firuzun kömək adı ilə göndərdiyi hərbçiləri öldürtdü, bəzilərinin burun-qulaqlarını kəsərək İrana qaytardı. Sasanilər öldürülən sərkərdələrin intiqamını almaq və hun basqınlarından xilas olmaq üçün bütün qüvvələrini toplayıb hərbi yürüş təşkil etdilər. Ağsuvar xan iranlıların hücuma keçəcəklərini bildiyi üçün əvvəlcədən tədbirlər görmüş, plan cızmışdı. Sasani ordusu hücuma keçəndə özlərini məğlub kimi göstərən hunların bir hissəsi dar dağ keçidinə tərəf geri çəkilirlər. İranlılar



keçidə doluşan kimi hunların qalan hissəsi keçidin ağzını tuturlar. Özlərini qaçan kimi göstərən hunlar da dərhal əks hücuma keçirlər. Firuz şah qoşunu ilə birlikdə mühasirəyə düşür. Məhv olmaq təhlükəsini görən şah xandan barışıq istəyir. Ağsuvar xan onun qarşısında çox ağır şərtlər qoyur. Xanın tələbinə görə Firuz şah həm öz qoşununun, həm də hun döyüşçülərinin qarşısında Ağsuvar xanın ayaqlarına düşərək üzr istəyir. Bundan başqa şah hunlara 20 kisə qızıl və bəzi əyalətləri verməli idi. Bundan sonra şah rüsvayçılıqla geri qayıdır. O xəzinəsindəki qızılların hamısını toplasa da cəmi 10 kisə qızıl göndərə bilir. Qalan qızılları toplayana qədər oğlu Qubadı girov kimi hun sarayına göndərir. Qubad Hun sarayında bir neçə il qalaraq Ağsuvar xanın rəğbətini qazana bilir. Firuz şah qalan 10 kisə qızılı toplamaq üçün əhali üzərinə xüsusi vergi qoyur. Çox çətinliklə qızılları topladıqdan sonra şah xəracı ödəyib oğlunu girovluqdan azad etdirir. 484-cü ildə Firuz şah yenidən Ağsuvar xanla müharibəyə başlayır. Bu dəfə Ağsuvar xan geniş düzənlikdə çoxlu çuxurlar qazdıraraq üstlərini otla örtdürür. Firuz şahın ordusu yenə də ağır məğlubiyyətə uğrayır. Şah yeddi oğlu ilə birlikdə həlak olur. Bağlanan yeni müqaviləyə əsasən Mərv və Soqd vilayətləri hunlara verilir. Bundan sonra Ağsuvar xan Qubad şahı taxta çıxarır. Qubad şah gözəlliyi ilə şöhrət qazanmış bacısını Ağsuvar xana verməklə mövqeyini daha möhkəmləndirir. Sərhədlərdə əmin-amanlıq yaradan Ağsuvar xan bundan sonra əsas diqqəti daxili siyasətə yönəldir və idarəetməni təkmilləşdirir. Onun vəfatından sonra hakimiyyətə oğlu Toraman Təkin gəlir. Ağ Hun imperiyasının yüksəlişi başlayır.



*Ağ Hun sikkəsi*

# Mihiraqula
(515-540-cı illər)

Mərkəzi Asiyada mövcud olmuş Ağ Hun imperiyasının qüdrətli hökmdarlarından biri, VI əsrin ən görkəmli şəxsiyyəti. V əsrin sonlarında Ağ Hun imperiyası güclənməkdə və ərazilərini genişləndirməkdə davam edirdi. Sasanilərin məğlubiyyətindən sonra imperiyanın qərb sərhədlərində nisbi sabitlik yarandı. Odur ki, Ağsuvar xanın oğlu Toraman Təkin taxta sahib olanda əsas diqqəti şərqə yönəldir. O Hindistana yürüşə başlayaraq əvvəlcə müasir Əfqanıstan torpaqlarını tutur. Bundan sonra hunlar Hindistanın çox hissəsini əhatə edən Qupta imperiyası ilə bir neçə il davam edən müharibəyə başladı. Ağ hunların zərbələri nəticəsində Hindistanın çox hissəsinə nəzarət edən Qupta imperiyası süqut etdi və 500-cü ildə Pəncab əyaləti hunların əlinə keçdi. VI əsr Bizans tarixçisi Prokopiy Ksesarski yazır: "Ağ hunlar bizim gördüyümüz hun qəbilələrindən fərqlənir. Onlar vəhşi hərəkətlər etmir, köçəri həyat sürmür, daha çox şəhərlərdə, kəndlərdə yaşayıb sənətkarlıq, ticarət, əkinçiliklə məşğul olurlar. Əlbətdə alaçıqda yaşayıb köçəri maldarlıqla məşğul olanları da var. Bu hunlar uca



*Hun-Sasani döyüşü*



boyları, cözəl sifətləri, dərilərinin ağ və tüksüz olması ilə seçilirlər." Toraman Təkinin ölümündən sonra paytaxt Sakala şəhərində onun oğlu Mihiraqula hökmdar elan olunur. Hind mənbələrində o "Filləri məhv edən", "Dünyanı dağıdan" ləqəbi ilə tanınır. Atasının bütün yürüşlərində erkən yaşlarında iştirak edən Mihiraqula cəsurluğu ilə döyüşçülər arasında şöhrət qazanmışdı. O taxta çıxan kimi ilk növbədə Teleutlarla müharibəyə başlayıb 516-cı ildə parlaq qələbə qazanır. Mihiraqula 518-ci ildə Jujan hökmdarı ilə müqavilə bağlayır və onun üç qızı ilə evlənir. Yeni yürüşlərə hazırlaşan hunlar ordunun sayını artırırlar. Mihiraqula ordusuna 700 fil də daxil etmişdi. Çinli səyyah Sun Yun bir müddət Ağ Hun sarayında yaşamışdır. O kitabında Mihiraqulanı ədalətli hökmdar kimi təsvir etmişdir. Mihiraqula yürüşə başlayaraq Hindistanın bir hissəsini də işğal edir. Budda dininin qatı düşməni olan Mihiraqula tutduğu ərazilərdə 1400-ə qədər məbəd və monastrı dağıtmışdı. Bununla belə digər ərazilərdə Budda məbədləri sərbəst fəaliyyət göstərirdi. Hindistanı tutduqdan sonra Sasanilərdən aldığı xəracı artıran Hun hökmdarı farslara məxsus "Şahənşah" titulunu da qəbul edir.



*Hunlara aid qablar*

520-ci ildə Ağ Hun elçiləri Çin sarayına gəlirlər və böyük ehtiramla qarşılanırlar. Bu zaman teleutlər üsyan qaldırıb jujanları darmadağın edirlər və Mihiraqulanın qaynatasını da öldürürlər. Ağ hun ordusu hücuma keçib

jujanları xilas edir və düşmənlərini darmadağın edirlər. Bu zaman Ağ Hun imperiyasının ərazisi 10 milyon km-ə bərabər idi. Hindistanın Qvalior şəhərində Mihiraqulanın şərəfinə abidələr qoyulur. Bu abidələrin bəziləri zəmanəmizə qədər gəlib çatıb. Hökmdar tutduğu ərazilərdə hun tayfalarını yerləşdirir, bir sıra islahatlar keçirir, ticarəti canlandırmaq üçün Böyük İpək yoluna nəzarəti gücləndirir. Onun adına müxtəlif şəhərlərdə gümüş pullar kəsilir.

526-cı ildə Ağ Hun elçiləri yenidən Çinə səfər edir. Mihiraqulanın məktubunda Çinə məxsus "Səma oğlu" titulunun yazılması onun daha da qüvvətlənməsindən xəbər verir. Çin imperatoru elçiləri hədiyyələrlə geri qaytarır. Ağ Hun imperiyasının belə qüvvətlənməsi Bizans imperiyasında təşviş yaradır. Bizans imperatorunun elçiləri qiymətli hədiyyələr və dostluq məktubu ilə Mihiraqulanın sarayına gəlir. Yenidən Hindistana yürüşə hazırlaşan hökmdar qərbdə təhlükəsizliyini təmin etmək üçün Bizans elçilərini xoş üzlə qarşılayır və dostluq əlaqələrinin yaradılmasına razılıq verir.

528-ci ildə Ağ Hun ordusu Hindistanın mərkəzinə doğru yeni hücuma başlayır. Hindistanın qərbində və cənubunda yaşayan hökmdarlar qorxuya düşürlər. Racələr tələsik qüvvələrini bilşəşdirib 100 minlik ordu ilə ona qarşı çıxırlar. Şəraitlə daha yaxşı tanış olan və bir neçə min döyüş filindən istifadə edən hindlilər hunların qarşısını kəsə bilirlər. Yürüş dayandırılır. Şimaldakı tayfaların üsyanı nəticəsində Hun ordusunun arxa ilə əlqəsi kəsilir, təhcizatı pozulur. Uğursuzluğa düçar olan Mihiraqula müharibənin faydasız olduğunu başa düşüb geri dönməyə məcbur olur. Bundan sonra hunlar qonşu torpaqlara yürüş-



lərdən həmişəlik imtina edirlər. Hindistandakı bir sıra vilayətlər əldən çıxır. Sonrakı illərdə əsas diqqət üsyan qaldıran tayfalara qarşı yönəldilir. Bu tayfalara qarşı cəza dəstələri göndərilir. Mihiraqula 540-cı ildə vəfat edir. Onun ölümündən sonra Ağ Hun imperiyasının tənəzzülü başlayır. Geniş ərazilərdə yaşayan hun tayfaları arasındakı əlaqələr tədricən zəifləyir. İmperiyada yaşayan bir sıra xalqlar üsyan qaldırır. İtaət altında olan Hind racələri bir-birinin ardınca müstəqilliklərini elan edir. Jujanlar, daha sonra Göytürklər dövlətlərini yaradırlar. Tezliklə Sasanilər və Göytürklər arasında ittifaq yaranır. Onlar 567-ci ildə iki tərəfdən Ağ Hun imperiyasına hücum edirlər. Müttəfiqlər qalib gəlir. Süquta uğrayan imperiyanın torpaqları iki dövlət arasında bölüşdürülür.

Ağ hunlar Azərbaycan xaqlının təşəkkül tapmasında iştirak edən tayfalardandır. Ağ hunlardan olan Çul tayfası I-II əsrlərdə Dərbənd ətrafında məskən salmışdı. Azərbaycanda Albaniya dövründə Çola vilayətinin adı onlarla bağlıdır.

# Çzyan qan-qun

(397-401-ci illər)

Şimali Çində hun tayfalarının yaratdığı kiçik dövlətlərdən birinin-Şimali Lyan dövlətinin (397-439-cu illər) banisi. Quldarlıq quruluşunun süqutundan, Xan imperiyasının dağılmasından sonra Çində hərc-mərclik dövrü başlandı.



*Çin səfiri hunlar arasında*

III-VI əsrlərdə imperiyada vahid, mərkəzləşdirmiş dövlət yaratmaq mümkün olmadı. Əvvəlcə Çində "üç padşahlıq dövrü", daha sonra "16 barbar krallığı dövrü" başlandı. Belə bir şəraitdə Çinin müxtəlif bölgələrində məskunlaşan xalqlar üsyan qaldırıb dövlətçilik ənənələrini bərpa etməyə və bir-birləri ilə fasiləsiz müharibələr aparmağa başladılar.

IV əsrin sonlarından etibarən dövlətçilik ənənələrini bərpa etməyə çalışan xalqlar içərisində hunlar da var idi. Çin imperatorları hələ III əsrdə hücumların qarşısını almaq, digər tayfaların basqını əlehinə sipər yaratmaq, türkləri assimlyasiya etmək məqsədi ilə hunları ölkənin müxtəlif bölgələrində, əsasən də basqın təhlükəsinin daha çox olduğu şimalda məskunlaşdırmışdılar. Hun başçılarını müxtəlif titullarla təltif edib hədiyyələr verməklə, çinli



qızlarla evləndirməklə müttəfiqlərə çevirməyə çalışan Çin imperatorları sərhədlərin mühafizəsini onlara tapşırırdılar.

397-ci ildə belə Hun başçılardan olan Çzyan qan-qun üsyan qaldırıb öz müstəqilliyini elan etdi. Onun adı tarixi ədəbiyyatda həmçinin Çzyuyçzyuymensin kimi də xatırlanır. O, IV əsrin 40-cı illərində anadan olmuş və uşaq yaşlarında girov kimi imperator sarayında yaşamışdır. Saraydakı xüsusi məktəbdə təhsil alan şahzadə hərb sənətinin incəliklərini öyrənmiş, müxtəlif elmlərlə, Çin mədəniyyəti və Budda dini ilə tanış olmuşdu. Bir qədər böyüdükdən sonra o imperator sarayındakı dəftərxanada qulluq etmiş və özü kimi girov qalan Hun şahzadələrinin birinin qızı ilə evlənmişdi. 376-cı ildə imperator onu səfir kimi Lionq dövlətinə göndərmişdi. Belə yüksək vəzifə tutmasına baxmayaraq imperator Çzyanın ailəsinin onunla getməsinə icazə verməmişdi. Yəqin ki, imperator qüsursuz xidmətinə baxmayaraq hun olduğu üçün ona şübhə ilə baxır və axıra qədər etibar etmirmiş. İmperatora etiraz etməyən Çzyan qan-qun uzun illər Lionq dövlətində səfir kimi yaşayır və yerli hökmdarın rəğbətini qazana bilir. Çin imperatorun ölümündən sonra ölkədə hərc-mərclik yaranında o ailəsini, qohumlarını, var-dövlətini Lionq dövlətinə köçürüb imperator sarayı ilə əlaqəni tamam kəsir. 388-ci ildən başlayaraq Çzyan qan-qun Lionq sarayında yüksək vəzifəyə təyin edilir. Bir neçə il bu vəzifədə çalışandan sonra onu nüfuzu daha da yüksəlir. Qonşu knyazlıqlarla fasiləsiz mübarizə şəraitində o dəfələrlə ordu başçısı kimi iştirak edərək uğur qazanır. Hökmdarın fərmanı ilə 396-cı ildə o Lionq dövlətində baş nazir təyin olunub ölkədə əsas simalardan birinə çevrilir. Hun mənşəli şəxsin

belə vəzifəyə təyin olunması çinli əyanların narazılıqlarına səbəb olur. Əvvəlcə onlar sarayda sui-qəsd təşkil edirlər. Lakin Çzyan sui-qəsdlərin üstünü açaraq iştirakçılarına amansız divan tutur və rəqiblərini aradan götürür. O qohumlarından bir neçə nəfəri saraydakı yüksək vəzifələrə təyin etdirir və hun süvarilərinin hesabına ordunu qüvvətləndirir. Az sonra ölkədə üsyan başlayır. Çzyan təcili hunlardan təşkil etdiyi ordunun köməyi ilə üsyançılarla mübarizəyə başlayır. O 397-ci ildə bütün düşmənləri əzib özünü müstəqil elan edir. Vuvey və Qansu əyalətlərini ələ keçirən hunlar Çjanye şəhərini paytaxta çevirirlər. Şəhər alınmaz qalaya çevrilir. Siyasi təcrübəsi olan Çzyan tezliklə idarəetməni qaydaya sala bilir. O ölkədə vergi islahatı keçirdi, xəzinə oğurluğunun qarşısını aldı. Yeni hökmdar mənşəyindən asılı olmayaraq istedadlı, sədaqətli şəxsləri vəzifələrində saxladı. Əlehdarları olan, acgözlükləri ilə seçilən, əhalinin nifrətini qazanan məmurları edam etdirib var-dövlətlərini müsadirə etdi. 398-ci ildə o yürüşə başlayıb ətrafdakı bir sıra



***Hun kurqanlarından tapılanlar***



ərazilərı də işğal etdi. İmperator hunların güclənməsindən qorxuya düşərək rüşvət yolu ilə Syanbi tayfalarını onların əlehinə qaldırdı.

399-cu ildə Syanbilər Şimali Lyan dövlətinə qəfildən basqın etdilər. Onlar Çin kəndlərini yandırıb, əhalini bir ucdan qılıncdan keçirdilər. Çzyan təcili ordusunu Syanbilər əlehinə yeridib onları məğlub etdi və torpaqlarını bir qədər də genişləndirdi. Çin mənbələri Çzyanı mədəniyyəti, elmi sevən bir şəxs kimi təsvir edirlər. Ağır vəziyyətdə olan alim və şairlərin bir hissəsi hunların himayəsini qəbul edir. Onun dövründə ölkədə Buddaya həsr olunan bir neçə mağara-məbədin inşasına başlanmışdı. Tikintisi uzun illər davam edən nəhəng məbədlər hazırda təkcə Çinin deyil, bütün dünyanın ən gözəl incəsənət nümunələrindən hesab edilir. Çzyanın ölümündən sonra Şimali Lyan dövlətində hakimiyyətə yaxın qohumu U Syun-van sahib olur. Onun van titulunu qəbul etməsi dövlətin bir qədər də yüksəlişindən xəbər verir. Ay-vanın vaxtında isə syanbilərin güclü hücumu başladı. Hunlar hücumların qarşısını kəsə bilmədi.

Şimali Lyan dövləti 439-cu ildə süqut etdi və torpaqları Şimali Vey dövlətininə qatıldı. Ay-vanın oğlu An-çzyan isə Turfan bölgəsinə qaçaraq 460-cı ildə jujanların işğalına qədər burada hakimlik etdi.

# Şi çzi

(407-425-ci illər)

Böyük Hun imperiyasının tənəzzülündən sonra onlara məxsus olan torpaqlarını ələ keçirən imperatorlar hun tayfalarını beş yerə bölərək Çinin müxtəlif əyalətlərində məskunlaşdırdılar. Bu yolla onların birliyi pozuldu. Həm də onlara Çin sərhədlərini digər köçəri tayfaların hücumundan qorumaq vəzifəsi tapşırılır. Məmurlar güman edirdilər ki, hunlar tədricən oturaq həyata keçərək çinlilərlə qaynayıb - qarışacaq, itaətkar kəndlilərə çevriləək və bir daha Çin imperiyası üçün təhlükə törətməyəcəklər. Ancaq onların ehtimalı özünü doğrultmadı. Sarısarıqlılar üsyanından sonra Xan sülaləsi süqut etdi. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində IV əsrdən etibarən imperiya tənəzzülə uğradı və Çində irili-xırdalı çoxlu dövlətlər meydana gəldi. Belə knyazlıqlardan bəzilərini hunlar yaradırlar. Çinin şimalında 304-439-cu illər "16 barbar dövləti dövrü" kimi tarixə düşüb. Bu dövrdə Çinin şimalında yaranan dövlətlərdən biri də Sya (407-431-ci illər) dövləti adlanır. Bu dövlətin başçısı Şi çzi Çin tarixçilərinə məxsus



*Süvarilər*



mənbələrdə həmçinin Xelyan bobo və U Le di kimi də xatırlanır. Onun ulu babası Lui Qubei (260-272-ci illər) əsası Teoman tanhu ilə bağlı Şanyuy sülaləsinə mənsub olub imperator tərəfindən Şensi əyalətinə köçürülən hunlara başçılıq edirdi. İmperator hakimiyyətinin güclü vaxtında Lui və övladları əmrləri dinməz yerinə yetirir, lazım gəldikdə dəstələri ilə Çin ordusunun tərkibində qəhrəmanlıqla vuruşurdular. Şinin atası Lyu Beyrenyanın zamanında Çində vəziyyət dəyişməyə başladı. O dərhal vəziyyətdən istifadə etdi və müdafiə bəhanəsi ilə ətraf qəzaları da nəzarəti altına alaraq imperatordan qulluq əvəzinə daha çox haqq tələb edir. Bu yolla onun qüvvəsi artmağa başlayır.

381-ci ildə Şi çzi anadan olur. Az sonra Syanbi tayfalarının Çinə basqını başlayır. İmperator ordusunun zəif olduğunu başa düşüb Lyuya ona qoşulmaq əmrini verir. Syanbi tayfaları ilə qanlı müharibə bir neçə il davam edir. 391-ci ildə Toba tayfaları ilə toqquşmalarda Lyu və böyük oğlu həlak olur. Buna baxmayaraq Toba tayfalarını məğlub etmək mümkün olur. İmperator Yao kiçik yaşlı Şini sarayına gətirərək nəzarət altına alır. Şi uzun illər imperator sarayında yaşayaraq təlim tərbiyə alır və böyüdükdən sonra Çin ordusunda zabit kimi qulluq edir. Firavan yaşayışına, saraydakı hörmətinə, hər cür rahatlığa baxmayaraq o heç vaxt hun olduğunu unutmur, qohumları ilə əlaqə saxlayır və daim azadlıq haqqında düşünür.

407-ci ildə imperator Yaonun vəfatından sonra kiçik dəstəsi ilə birlikdə sarayı tərk edən Şi şimala hərəkət edir. O "şəhər həyatı hunları korlayır" şüarı ilə çıxış edirdi. Şiyə tabe olan hunlar rəhbərlərinin çağırışı ilə Çinin

müxtəlif yerlərindən onun yanına gələrək həvəslə köhnə adət-ənənələrini bərpa edir, məşğuliyyətlərinə qayıdırlar. Bununla belə hökmdar Tunvan şəhərini paytaxta çevirərək oranı möhkəmləndirir və özünə saray tikdirir. Hökmdar çinli məmurların, sənətkarların, alimlərin əməyindən istifadə edib onları incitməyə imkan vermirdi. O dövlətində nizam-intizam yaradır, kəndli və sənətkarlardan alınan bəzi vergiləri ləğv edib, mükəlləfiyyətləri azaldır. Sabitlik yaratdıqdan sonra Şi Cənubi Lyan hökmdarına müraciət edərək dostluq əlaqələri qurmaq, onun qızı ilə evlənmək istədiyini bildirir. Əvvəlcə qohum olmağa razılıq verən Lyan hökmdarı imperatorun təhriki ilə fikrini dəyişir, aldığı bəxşişlərə görə rədd cavabı verir. Bundan sonra onlar arasında müharibə başlayır. Elə ilk döyüşdə Şi çzinin 20 min nəfərlik ordusu parlaq qələbə qazanır, düşmənin 70 minlik ordusunu darmadağın edir. Şi çzinin nüfuzu daha da artır. Syanbi tayfalarının bir hissəsi qələbədən sonra onun hakimiyyətini qəbul edir. 411-ci ildə Çin ordusu müharibəyə başlayır. Hunlar imperator ordusunu darmadağın edib ərazilərini daha da genişləndirir. 415-ci ildə Şi şahzadə Lodi Lianla evlənir.



*Zərgərlik nümunələri*



416-cı ildə hunlar yenə yürüşlərə başlayıb xeyli torpaq və qənimət ələ keçirirlər. 417-ci ildə o Şərqi Çzin imperatorunun qoşunlarını növbəti dəfə darmadağın edir. Düşməni təqib edən hunlar Quançjun və Çanan əyalətlərini də işğal edirlər. Bu dövrdə hunların nəzarəti altında olan ərazilər 800 min km. uzunluğunda idi. Dövlətin əhalisi isə 10 milyon nəfər idi. Sonrakı illərdə Şi fəal hərbi əməliyyatlardan əl çəkir. Əsas diqqət daxili məsələlərin həllinə yönəldilir. Çin mənbələrində onu sərt, amansız, qorxmaz adam kimi təsvir edirlər. Hakimiyyətinin son illərində isə Şi qəddarlaşır, hətta yaxınları ilə belə amansız rəftar edir. Çin tarixçilərinə məxsus salnamələrdə yazılıb ki, hökmdar ona baxmağa cəsarət edənlərin gözlərini çıxardır, başını qaldıranların boynunu vurdurur, gülümsəməyə cəsarət edənlərin dodaqlarını kəsdirirdi. Bununla belə ömrü boyu qılıncını və ox-kamanını əlindən yerə qoymayan Şi-çzununun dövlətçilik qabiliyyətini dövrün tarixçiləri etiraf edir. 425-ci ildə onun vəfatından sonra hakimiyyətə növbə ilə oğlanları Xo-li çjan və Xo-li din sahib olur. Atalarının yolunu davam etdirməyə çalışsalar da dövlətin tənəzzülü başlayır.

431-ci ildə Tuquxin tayfalarının basqınından sonra Sya dövləti süqut edir. Onun torpaqları Şimali Vey imperiyasına qatılır.

## İstifadə olunmuş ədəbiyyat

### Azərbaycan dilində


Azərbaycan tarixi B.1990
Azərbaycan tarixi B. 1996
Azərbaycan tarixi B. 2000
Azərbaycan tarixi üzrə qaynaqlar B.1989
Azərbaycan Sovet Ensiklopediyası 10c. B. 1976
Abasqulu ağa Bakıxanov. Gülüstani İrəm B.1956
Abdullayev F. Atropatena B.1992
Asif Hüseynov. Asiya hökmdarları B. 2006
Asif Hüseynli Çin hökmdarları B.2008
Bahaəddin Ögəl Böyük Hun imperiyası 2c B. 1992
Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi B. 1992
Cavad Heyət Türklərin tarix və mədəniyyətinə bir baxış B.1993
Rəşid bəy İsmayılov. Azərbaycan tarixi B. 1993
Rəfik Özdək Türkün qızıl kitabı 1c. B1992
Qiyasəddin Qeybullayev Qədim türklər və Ermənistan B. 1992
Qumilyov Lev Qədim türklər B. 1993
Solmaz Qaşqay Manna dövləti B.1993
SSRİ tarixi I h. B. 1985
Vəli Həbiboğlu. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri B. 1995
Mahmud İsmayılov. Sənin ulu baban B.1989
Mahmudov Y. Orta əsrlər tarixi B.1989
Məhəmməd Həsən Vəliyev. Azərbaycan B.1993
Moisey Kalankatlu. Albaniya tarixi B.1993
Məmmədov Altay. Oğuz səltənəti B.1992
Taruk Sümər. Oğuzlar B.1992
Yusifov Yusif. Qədim Şərq tarixi B.1993
Yüz böyük türk B.1991





Əlisa Nicat. Tarixin sübh çağı B.1982
Əsmət Muxtarova. Türk xalqlarının tarixi B.2007
Orta əsrlər tarixi I c B.1988


### Rus dilində


Булат Джандарбеков Томирис У.1989
Босворт К.Э.Мусульманские династия М.1971
Все монархи мира. Древний Восток М.2006
Всемирная история 10 т. М 1954
Величайщие монархи мира . М .2007
Гумилев Л.Н. Тысячелетие вокруг Каспия Б.1991
Гумилев Л.Н. Хунну. Ствная трилогия. М.1993
Древний Восток М. 2006
Тураев Б.А История Древного Востока Л.1954
Томпсон Э. Гунны. Грозные войны степей М.1999
Советская историческая энциклопедия 16т М.1959
Сто великий героев М.2007
Сто великий монархов М.2004
Сто великий военачальников М. 2005
Сто великий дипломатов М. 2007
Сто великий династии М. 2006
История Востока М.1955
История Китая М.1998
Касымова С. Ю. Азербайджан в III-IV вв.Б.1993
Крадин Н.Н. Империя Хунну В. 1996
Кляшторный С.Г. Гуннская держава на востоке М.1983
Техов Б.В.Скифы и Центральный Кафказ в VII-VI вв до н.э. М.1980
Тероножкин А.И. Киммерийцы К.1976
Тероножкин А.И. Общественный строй скифов К. 1977

## MÜNDƏRİCAT

Ön söz ........ 3
İranzu ........ 5
Ullusunu ........ 9
İşpakay ........ 13
Teupşa ........ 17
Tomiris ........ 21
Atropat ........ 26
Artabaz ........ 30
Teoman Tanhu ........ 34
Mete ........ 38
Künçin tanhu ........ 42
Çiçi xan ........ 46
Şı-tao xan ........ 50
Czyuy zyuyir ........ 54
Qao-çzu ........ 58
Oroys ........ 61
Balamir ........ 65
Pua ........ 69
Atilla ........ 73
Ağsuvar xan ........ 77
Mihiraqula ........ 80
Çzyan qan-qun ........ 84
Şi çzi ........ 88
İstifadə olunmuş ədəbiyyat ........ 92



**«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması**

***Baş direktor: Hidayət Musabəyli***

*Korrektor: Yasəmən İsmayılova*
*Dizayn: Lətifə Məhərrəmova*
*Çapçı-operator: Nail Əliyev*

Çapa imzalanmışdır: 26.03.2013
Kağız formatı: 60x84 1/16
Həcmi: 6,0 çap vərəqi
Tiraj: 600 nüsxə; Sifariş: 936

Nərgiz - NƏŞRİYYATI

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Nəşriyyatla əlaqə telefonları: 323-69-53
050-738-37-22